Slovak international scientific journal

№112, 2026
Slovak international scientific journal

The journal has a certificate of registration at the International Centre in Paris – ISSN 5782-5319.
The frequency of publication – 12 times per year.
Reception of articles in the journal – on the daily basis.
The output of journal is monthly scheduled.
Languages: all articles are published in the language of writing by the author.
The format of the journal is A4, coated paper, matte laminated cover.
Articles published in the journal have the status of international publication.

The Editorial Board of the journal:
Editor in chief – Boleslav Motko (Bratislava) Slovakia
The secretary of the journal – Milica Kovacova (Bratislava) Slovakia

- Lucia Janicka – (Bratislava) Slovakia
- Stanislav Čerňák – (Bratislava) Slovakia
- Miroslav Výtisk – (Nitra) Slovakia
- Dušan Igaz – (Nitra) Slovakia
- Terézia Mészárosová – (Banská Bystrica) Slovakia
- Peter Masaryk – (Rzeszów) Poland
- Filip Kocisov – (Wrocław) Poland
- Andrej Bujalski – (Košice) Slovakia
- Jaroslav Kovac – (Trnava) Slovakia
- Paweł Miklo – (Bratislava) Slovakia
- Jozef Molnár – (Bratislava) Slovakia
- Tomajko Milaslavski – (Nitra) Slovakia
- Natália Jurková – (Bratislava) Slovakia
- Jan Adamczyk – (Prague) Czech Republic
- Boris Belier – (Bratislava) Slovakia
- Stefan Fišan – (Bratislava) Slovakia
- Terézia Majercakova – (Wien) Austria
- Ekaterina Semko (Kyiv) Ukraine

1000 copies
Slovak international scientific journal
Partizanska, 1248/2Bratislava, Slovakia 811 03
email: info@sis-journal.com
site: http://sis-journal.com

CONTENT

COMPUTER SCIENCES

Bondar M.
FAULT PROGNOSTICS AS A GROWTH CONSTRAINT IN ASSET-LIGHT FLEET EXPANSION.....3
Gromov A.
REGULATORY COMPLIANCE COST AS A DETERMINANT OF MARKET-ENTRY STRATEGY IN THE U.S. TRUCKING INDUSTRY.....8
Kuznetsov D.
ARTIFICIAL INTELLIGENCE INTEGRATION IN WATER UTILITY ENGINEERING: DISTINGUISHING CONTROL-SIDE BOTTLENECKS FROM THERMODYNAMIC LIMITS 14
Sadykova A.
ACTUARIAL IMPLICATIONS OF FUEL-SYSTEM RELIABILITY INTERVENTIONS FOR HAZMAT CARRIER INSURANCE PRICING 20
Kurbonov Z., Yuldoshev R., Toshpulotov Sh.
EDGE COMPUTING BA CLOUD COMPUTING: DIFFERENCES AND INTEGRATION 31

ECONOMY

Shevchenko M.
FROM VEHICLE OPERATIONS TO ASSET-ORIENTED MOBILITY MANAGEMENT: SEPARATING COGNITIVE REFRAMING FROM ANALYTICAL METHOD CHANGE 37
Günaltili İ.
FINITE PATH GRAPHS 44
Məmmədzadə N., İbrahimov V.
USING THE RICHARDSON EXTRAPOLATION METHOD FOR THE INVESTIGATION OF THE FORWARD-JUMPING ADVANCED FORMULA.....47

PEDAGOGY

Hurchonok V.
ARTIFICIAL INTELLIGENCE IN TEACHING NATURAL SCIENCE AND MATHEMATICS DISCIPLINES: SURVEY RESULTS ON TEACHERS' AND STUDENTS' READINESS, BARRIERS AND NEEDS.....53
Matay N., Kenesbay A., Yerikova L.
METHODOLOGY FOR ORGANIZING STUDENTS' INDEPENDENT WORK IN THE FLIPPED CLASSROOM MODEL 60
Samaruk N., Poplavska O.
MATHEMATICAL TRAINING OF STUDENTS MAJORING IN ECONOMICS: APPLIED ORIENTATION AND MODERN METHODOLOGICAL APPROACHES.....63

PHILOLOGY

Akhvlediani M.
THE LINGOUSTYLISTIC FUNCTION OF GEORGIAN PROPER NAMES IN THE LANGUAGE OF RUSSIAN POETRY.....66

STATE AND LAW

Humbatov M.
INCENTIVE AND DISCIPLINARY MEASURES APPLIED TO DETAINED PERSONS AND CONVICTS IN THE REPUBLIC OF AZERBAIJAN: HISTORY, CURRENT STATE AND PROSPECTS.....70

STATE AND LAW

AZƏRBAYCAN RESPUBLİKASINDA HƏBS EDİLMİŞ ŞƏXSLƏRƏ, MƏHKUMLARA TƏTBİQ EDİLƏN HƏVƏSLƏNDİRMƏ VƏ TƏNBEH TƏDBİRLƏRİ: TARİXİ, VƏZİYYƏTİ VƏ PERSPEKTİVLƏRİ

Hümbətov M.H.
Azərbaycan Respublikası, Bakı şəhəri

INCENTIVE AND DISCIPLINARY MEASURES APPLIED TO DETAINED PERSONS AND CONVICTS IN THE REPUBLIC OF AZERBAIJAN: HISTORY, CURRENT STATE AND PROSPECTS

Humbatov M.
Baku City, the Republic of Azerbaijan
DOI: 10.5281/zenodo.23303208

Xülasə

Azərbaycanda son yüz il ərzində həbs edilmiş şəxslərə və məhkumlara tətbiq edilən həvəsləndirmə, tənbeh tədbirləri, onların məzmunu, tətbiqi əsasları, qaydaları təhlil edilir, müvafiq qanunvericilik aktlarının təkmilləşdirilməsi ilə bağlı təkliflər verilir.

Abstract

The incentive and disciplinary measures applied to detainees and convicts in Azerbaijan over the past century—along with their content, grounds for application, and procedural rules—are analyzed, and proposals are offered for improving the relevant legislative acts.

Açar sözlər: Azərbaycan Respublikası, İslah-Əmək Məcəlləsi, Cəzaların İcrası Məcəlləsi, azadlıqdan məhrum edilmiş şəxslər, həvəsləndirmə və tənbeh tədbirləri.

Keywords: Republic of Azerbaijan, Correctional Labor Code, Code on the Execution of Punishments, persons deprived of liberty, incentive and disciplinary measures.

Həbs yerlərində saxlanılma və cəzaların icrası qanunvericiliklərinin məqsədlərinə nail olunmasında həvəsləndirmə və tənbeh tədbirləri müstəsna əhəmiyyət kəsb edir. Bu tədbirlər cinayət mühakimə icraatının təmin edilməsi, məhkumların islah olunması və onlar tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısının alınması prosesində tətbiq edilən mühüm hüquqi alətlərdir. Sözügedən tədbirlərin digər hüquqi alətlərdən fərqi ondan ibarətdir ki, onlar azadlıqdan məhrum edilmiş şəxslərin bilavasitə həbs yerlərində və cəzaçəkmə müəssisələrində saxlandıqları dövrdəki davranışları, müvafiq qanunvericiliyə, o cümlədən üzərlərinə qoyulmuş vəzifələrə riayət edib-etməmələri ilə əlaqədardır. Hər iki tədbirin tətbiqi azadlıqdan məhrum edilmişlər, xüsusilə məhkumlar üçün cəzanın çəkilməsi müddətində əhəmiyyət kəsb edir, onlar sözügedən şəxslərin hüquqi vəziyyətinə təsir göstərmək imkanına malikdirlər.

Hüquq ədəbiyyatında azadlıqdan məhrum edilmiş şəxslərə tətbiq edilən həvəsləndirmə və tənbeh tədbirləri tərbiyəvi mahiyyətə malik, müvafiq şəxslərin saxlanılması və cəzalarının icrası vəzifələrini yerinə yetirən müəssisələrin fəaliyyətinin və daxili rejim qaydalarının təmin olunmasının, konkret ünvana yönəlməklə islah təsirinin fərdiləşdirilməsinin, qanuna itaətli davranışa təşviqin, sözügedən şəxslər tərəfindən yeni cinayət və digər hüquqpozmaların profilaktikasının vacib vasitəsi kimi xarakterizə edilir [1, c. 50, 2, c. 37, 3, c. 180, 183, 4, c. 278, 5, c. 299, 6, Səh. 486, 409]. Fikrimizcə, sözügedən tədbirlər, habelə azadlıqdan məhrum edilmiş şəxslərin davranışının qiymətləndirilməsi meyarı kimi çıxış edir, onların hərəkətlərinin dəyərləndirilməsi və korreksiya edilməsinin bir üsulu olmaqla, həm stimullaşdırıcı, həm də xəbərdaredici vəzifələri yerinə yetirirlər.

Azadlıqdan məhrum edilmiş şəxslərə tətbiq edilən həvəsləndirmə tədbirləri elə tərbiyəvi təsir vasitələridir ki, həbs yerlərinin və cəzaçəkmə müəssisələrinin müdiriyyəti onların köməyi ilə sözügedən şəxsləri bir-birindən fərqləndirir, onların nümunəvi davranışını, əməyə və təhsilə vicdanlı münasibətini, özfəaliyyət təşkilatlarının işində fəal iştirakını qiymətləndirir. Sözügedən şəxslərə tətbiq olunan təhbeh tədbirləri isə, həbs yerlərində və cəzaçəkmə müəssisələrində müəyyən edilmiş rejim və daxili qaydanın tələblərinə hərəkət və ya hərəkətsizlik formasında qəsd edən hüquqazidd və təqsirli əməllərə müdiriyyətin qanuni reaksiyası, obyektiv cavabı kimi səciyyələndirilir. Özünün hüquqi təbiətinə görə qanunla müəyyən edilmiş tələblərin azadlıqdan məhrum edilmiş şəxslər tərəfindən pozulması intizam xətası olmaqla, təqsirli şəxsin müvafiq məsuliyyətə cəlb edilməsi üçün əsas yaradır, digər şəxsləri oxşar hərəkətlərdən çəkindirmək məqsədilə qabaqlayıcı vəzifəni yerinə yetirir [3, c. 182]. Ümumiyyətlə, qanunvericiliyə uyğun olaraq azadlıqdan məhrum edlimişlər həbsdə saxlanılma və ya cəza çəkmə dövründəki istər birdəfəlik, istərsə də uzun müddətli müsbət və ya pozuntularla müşayiət olunan davranışlarına görə həvəsləndirilə və ya tənbeh edilə bilərlər.

Azadlıqdan məhrum edilmiş şəxslərə tətbiq olunan həvəsləndirmə və tənbeh tədbirlərinin həm oxşar, həm də fərqli xüsusiyyətləri mövcuddur. Bənzər xüsusiyyətə, ilk növbədə, onların hərəkət və ya hərəkətsizlik qaydasındakı davranışa verdikləri hüquqi qiymət aid edilməlidir. Onların növləri və tətbiq

qaydaları qanunvericiliklə dəqiq müəyyən olunur, habelə, hər iki tədbir eyni hüquqi təbiətə malik olmaqla, müvafiq qanunvericilik aktlarının məqsədlərinə nail olunmasına qulluq edir. Məhkuma həvəsləndirmə və tənbeh tədbirlərinin tətbiq edilməsi, onun cəzanın çəkilməsi dövründə islah edilmə dərəcəsinin müəyyən olunması zamanı digər xüsusatlarla yanaşı nəzərə alınır. Eyni zamanda, həmin tədbirlər, dairəsi qanunvericiliklə dəqiq müəyyən edilmiş vəzifəli şəxslər tərəfindən tətbiq olunur, bilavasitə azadlıqdan məhrum edilmişlərin hüquq və azadlıqlarına, imtiyazlarına toxunur. Əlavə olaraq, həvəsləndirmə və tənbeh tədbirləri bir sıra xüsusi kateqoriyalı şəxslər, yəni yetkinlik yaşına çatmayanlar, hamilə və yanında azyaşlı uşağı olan qadınlar üçün fərqli, daha humanist yanaşmalar nümayiş etdirir. Nəhayət, hər iki tədbir, cəzaçəkmə müəssisələrində məhkumların islah edilməsi fəaliyyətinin, xüsusilə tərbiyə işinin səmərəliliyinin müəyyən olunması meyarlarından biri kimi çıxış edir [7, c. 81].

Həvəsləndirmə və tənbeh tədbirlərini bir-birindən fərqləndirən xüsusiyyətlərə gəldikdə ilkin vurğulanmalıdır ki, onların məqsədləri və tətbiqi əsasları müxtəlifdir. Həmin tədbirlərin sözügedən şəxslərə göstərdiyi psixoloji təsirlər də fərqlidir, həvəsləndirmə tədbiri müsbət emosiyalar, yəni ruh yüksəkliyi, daxili stimul və özünəinam yaradırsa, tənbeh tədbirləri əksinə, narahatçılıq, təşviş və stress kimi mənfi emosiyalara yol açır. Həvəsləndirmə ilə müqayisədə, tənbeh tədbirlərinin tətbiqi daha mürəkkəbdir, xüsusi prosedurla müşayiət olunur, əvvəllər bir sıra hallarda, digər orqan və strukturlarla razılaşdırılmalar tələb edilirdi. Tənbeh tədbirlərinin tətbiqindən müdafiə imkanları mövcuddur, yəni qanunvericilikdə azadlıqdan məhrum edilmiş müvafiq şəxslərin rəy bildirmək, vəkilin köməyindən istifadə etmək, şikayət vermək ilə bağlı hüquqları təsbit edilmişdir. Eyni zamanda, bir qrup təhbeh tədbirlərinın tətbiqi, icrası, qüvvədə qalma müddəti ilə bağlı xüsusi şərtlər və məhdudiyyətlər müəyyən edilmişdir. Habelə, həvəsləndirmə və tənbeh tədbirlərinin hüquqi nəticələri fərqlidir. Belə ki, həvəsləndirmə tədbirləri azadlıqdan məhrum edilmiş şəxslərin hüquqi vəziyyətində müsbət, tənbeh tədbirləri isə mənfi dəyişikliklərə yol açır. Cəzanın icrası qaydasında icraat ilə bağlı məsələlərin həlli prosesində, o cümlədən məhkumun cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi, habelə on səkkiz yaşına çatmış məhkumların iyirmi yaşınadək Tərbiyə müəssisələrində saxlanılması məsələlərinə məhkəmədə baxılarkən həvəsləndirmə və tənbeh tədbirlərinin tətbiq edilməsi halları qərarın qəbulunda xüsusi əhəmiyyət kəsb edir. Belə ki, Azərbaycan Respublikasının Cinayət-Prossesual Məcəlləsinin (bundan sonra AR CPM) 513–514-cü maddələrinə uyğun olaraq sözügedən məsələlərə baxılarkən məhkəmə məhkumun şəxsi işini nəzərdən keçirməklə, orada toplanmış materialları öyrənir, onları və cəzaçəkmə müəssisəsi tərəfindən təqdim edilən mülahizə və ya təqdimatı nəzərə almaqla, qərar qəbul edir. Sözügedən sənədlərdə cəzanın çəkilməsi müddətində məhkumu xarakterizə edən, o cümlədən sonuncunun davranışı ilə əlaqədar məlumatlar da öz əksini tapır. Məhkumun şəxsi işinə digər sənədlərlə yanaşı, həvəsləndirmə və tənbeh tədbirlərinin tətbiqi ilə əlaqədar materiallar da əlavə olunur, habelə müdiriyyət tərəfindən verilmiş mülahizə və ya təqdimata digər xüsusatlarla yanaşı sözügedən tədbirlərin tətbiq edilib-edilməməsi ilə əlaqədar məlumatlar da daxil edilir. Sözügedən məlumatlar məhkəmə tərəfindən baxılan məsələnin təmin olunması, yaxud rədd edilməsi ilə bağlı qərarın qəbuluna təsir göstərir. Təcrübə göstərir ki, bir qayda olaraq, həvəsləndirmə tədbirləri tətbiq edilmiş məhkumların cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi, cəzanın çəkilməmiş hissəsinin daha digər cəza növü ilə əvəz olunması, cəzaçəkmə müəssisəsinin növünün daha yüngülunə dəyişdirilməsi məcələlərinin müsbət, tənbeh tədbirlərinə məruz qalmış şəxslərlə bağlı isə, mənfi həllini şərtləndirir. Eyni zamanda, cəzanın icrası qaydalarının qərəzli pozulması, yəni məhkuma iki və daha çox tənbeh tədbirinin tətbiq edilməsi halları, onun məntəqə tipli cəzaçəkmə müəssisəsindən məhkəmənin hökmdə müəyyən etdiyi rejim növündəki cəzaçəkmə müəssisəsinə, məhkəmənin hökmü ilə məntəqə tipli cəzaçəkmə müəssisəsinə göndərilən şəxsin ümumi rejimli cəzaçəkmə müəssisəsinə, ümumi, ciddi və xüsusi rejimli cəzaçəkmə müəssisələrindən həbsxanaya keçirilməsi məsələlərinə də baxılması prosesində də müvafiq məhkəmə qərarının qəbulu üçün həlledici əhəmiyyətə malik olur. Məhkəmə müvafiq işlər üzrə qəbul etdiyi qərarların əsaslandırılması, xüsusilə məhkumun cəzanın çəkilməsi dövründəki davranışını qiymətləndirilməsi zamanı, sonuncu barədə həvəsləndirmə və ya tənbeh tədbirlərinın tətbiqi ilə əlaqədar hallara da istinad edir. Qeyd olunmalıdır ki, Azərbaycan Respublikası Ali Məhkəməsinin "Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə, cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi və xəstəliyə görə cəzanı çəkməkdən azad etmə ilə bağlı məhkəmə təcrübəsi haqqında" 8 oktyabr 2010-cu il tarixli Plenum qərarında məhkəmələrə sözügedən məsələlərlə baxılarkən, digər mühüm məsələlərlə yanaşı, məhkumu xarakterizə edən, o cümlədən onun cəzanın çəkildiyi müddətdə davranışını səciyyələndirən məlumatların nəzərə alınması tövsiyə olunur.

Məhkum barədə tənbeh tədbirlərinin tətbiq edilməsi, habelə qüvvədə olan tənbehin mövcudluğu cəza çəkən şəxsin əfv olunması ilə bağlı məsələnin müsbət həllinə də maneçilik törədə bilər. Belə ki, məhkumun, onun müdafiəçisi, nümayəndəsi və ya qanuni nümayəndəsi tərəfindən verilmiş əfv edilmə ilə bağlı müraciətə, habelə digər orqan və şəxslər tərəfindən verilmiş vəsatətlərə baxılması prosesində Azərbaycan Respublikası Prezidentinin 18 iyul 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Əfvetmə haqqında Əsasnamə"nin 19-cu bəndinə uyğun olaraq məhkum barədə Əfv Məsələləri Komissiyasına təqdim edilən ümumi arayışa, cəzaçəkmə müəssisəsindən daxil olmuş xasiyyətnaməyə istinadən, əhəmiyyət kəsb edən digər məsələlərlə yanaşı, cəza çəkən şəxsin rejim qaydalarına riayət edib-etməməsi və davranışı barədə məlumatlar

da daxil edilir. Sözügedən məlumatlarda, cəzanın çəkilməsi dövründə məhkuma həvəsləndirmə və tənbeh tədbirlərinin tətbiqi ilə əlaqədar hallar da öz əksini tapır. Cəzanın icrası qaydalarının qərəzli pozulması, habelə tənbeh tədbirlərinin tətbiqi halları, sözügedən Komissiya tərəfindən məhkumun əfv edilməyə tövsiyə olunmaması barədə qərarın qəbulunu şərtləndirə bilər. Habelə, təsadüfi deyil ki, Azərbaycan Respublikası Prezidentinin əfvetmə ilə əlaqədar imzalandığı fərman və sərəncamlarının giriş hissəsində bağışlanmaya əsas yaradan xüsusatlar arasında məhkumların cəza çəkdikləri müddətdəki davranışlarının da nəzərə alınması qeyd olunmuşdur.

Eyni zamanda, məhkumlara tətbiq olunmuş tənbeh tədbirləri, onlar barəsində amnistiya aktının tətbiqinə də qadağa qoya bilər. Belə ki, sabiq SSRİ dönəmindəki amnistiyaların, bir qayda olaraq, cəzanın icrası qaydalarını qərəzli pozan, habelə tənbeh tədbirlərinə məruz qalmış məhkumlar barəsində tətbiqinə məhdudiyyətlər qoyulurdu. Misal üçün, 18 iyun 1987-ci il tarixdə SSRİ Ali Sovetinin Rəyasət Heyətinin Fərmanı ilə elan olunmuş ”Böyük Oktyabr sosialist inqilabının 70 illiyi ilə əlaqədar” Amnistiyanın sözügedən şəxslərə şamil olunması qadağan edilmişdi. Azərbaycan Respublikasında müstəqilliyin bərpasından sonrakı ilk illərdə, yəni 1991–1997-ci illərdə, habelə 12 may 1998-ci ildə qəbul edilmiş amnistiya aktlarının cəza çəkmə yerlərində rejim qaydalarını qərəzli, yaxud dəfələrlə pozmuş şəxslər barəsində tətbiqi məhdudlaşdırılmışdı. Lakin qeyd olunan dövrdən sonra, yəni 1998-ci ilin 29 dekabrında, habelə 1999–2025-ci illərdə qəbul edilmiş digər on amnistiyada sözügedən qadagan nəzərdə tutulmamışdır**.**

Həmçinin, əvvəlki qanunvericilik aktlarında olduğu kimi Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində (bundan sonra AR CİM) təsbit olunmuş cəzanın çəkilməsi prosesində məhkumlara təqdim edilə bilən bir sıra imtiyazlarla bağlı, yəni qadınlara hamiləliyə və ya doğuşa görə işdən azad edildikləri vaxt ərzində, habelə uşaq üç yaşına çatanadək cəzaçəkmə müəssisəsindən kənarda yaşamağa, eləcə də, cəzaçəkmə müəssisəsinin hüdudlarından kənara qısa müddətli səfərlərə icazə verilməsi məsələləri ilə əlaqədar qərarlar Ədliyyə Nazirliyi ilə razılaşdırılarkən, cəza çəkən şəxsin rejimin tələblərinə riayət edib-etməməsi, onun davranışı, habelə barəsində həvəsləndirmə və ya tənbeh tədbirlərinin tətbiqi kimi hallar da nəzərə alınır. Bu zaman məhkumun davranışı qiymətləndirilərkən, onun barəsində tənbeh tədbirinin tətbiqi, baxılan məsələnin müsbət həllindən imtinaya səbəb ola bilər. Habelə, qeyd olunmalıdır ki, məhkumlara digər bir imtiyazın təqdim edilməsinə, yəni tənbehi olan məhkumların cəzaçəkmə müəssisəsindən kənarda müşayiətsiz hərəkətinə bilavasitə AR CİM-in 87.2-ci maddəsi ilə qadağa qoyulmuşdur. Eyni zamanda, cəzanın icrası müddətində məhkum barəsində tənbeh tədbirinin tətbiq edilməsi, onun cəzasının qalan hissəsini çəkmək məqsədilə mənsub olduğu dövlətə verilməsi barədə vəsatətinin müsbət həllini də çətinləşdirə bilər.

Azadlıqdan məhrum edilmiş şəxslərə həvəsləndirmə və tənbeh tədbirlərinin tətbiqinin əhəmiyyət kəsb etdiyi nəzərə alınaraq, onlara sözügedən şəxslərlə davranışa dair beynəlxalq aktlarda da toxunulmuşdur. Belə ki, Birləşmiş Millətlər Təşkilatının 30 avqust 1955-ci il tarixli “Məhbuslarla minimal standart davranış qaydaları”, həmin qaydaların 17 dekabr 2015-ci il tarixli, aparteid əleyhinə mübarizə simvolu, dünya miqyaslı siyasi xadim, 1993-cü il Nobel Sülh Mükafatı laureatı, Cənubi Afrika Respublikasının sabiq prezidenti Nelson Mandelanın adını daşıyan yenilənmiş mətni, 29 noyabr 1985-ci il tarixli “Yetkinlik yaşına çatmayanlar barədə ədalət mühakiməsinin həyata keçirilməsinə dair minimal standart qaydalar (Pekin qaydaları)”, 9 dekabr 1988-ci il tarixli “Hər hansı bir formada saxlanmağa, yaxud həbsə məruz qalmış bütün şəxslərin müdafiəsi üzrə əsas prinsiplər məcmusu”, 21 dekabr 2010-cu il tarixli “Məhkum qadınlarla və azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəza növləri tətbiq edilmiş qadın hüquqpozucuları ilə rəftara dair Qaydalar (Bankok qaydaları)”, habelə 11 yanvar 2006-cı il tarixli Avropa Penitensiar Qaydaları (1 iyul 2020-ci il tarixli əlavələrlə) sözügedən şəxslər barədə həvəsləndirmə və tənbeh tədbirlərinın tətbiqi ilə bağlı məsələyə öz münasibətlərini bildirmişlər. Sözügedən beynəlxalq sənədlər həvəsləndirmə və tənbeh tədbirlərinin konkret siyahısını, onların növlərini müəyyən etməsələr də, azadlıqdan məhrum edilmiş şəxslərə müvafiq tədbirlərin milli qanunvericiliyə uyğun onların davranışlarının qiymətləndirilməsi məqsədilə istifadə edilməsinin əhəmiyyətini ümumi şəkildə vurğulamışlar. Eyni zamanda, sözügedən aktlarda daxili qayda, rejim və təhlükəsizlik üçün təhdid yarada bilən hərəkətlərlə əlaqədar intizam pozuntularına qarşı son tədbir qismində və yalnız milli qanunvericiliklə müəyyən olunmuş tənbeh tədbirlərinin tətbiqi ilə əlaqədar kifayət qədər tövsiyələr nəzərdə tutulmuşdur. İstinad olunan beynəlxalq aktlarda ilk növbədə, azadlıqdan məhrum edilmiş şəxslərə intizam pozuntuları sayılan hərəkət və ya hərəkətsizliyin mahiyyətinin, onlarla əlaqədar aparılan araşdırma prosesində gözlənilməsi tələb olunan prosedurların, tətbiq edilən tənbehlərin müddətlərinin, müvafiq səlahiyyətli orqanların vəzifəli şəxslərinin, şikayət verilmə mexanizminin bilavasitə qanunda müəyyən edilməsinə, habelə hər bir tənbehin yol verilmiş pozuntuya mütənasib olmasının vacibliyinə diqqət ayrılmışdır. Əlavə olaraq, həmin sənədlər intizam pozuntusu törətməkdə təqsirli hesab edilən azadlıqdan məhrum edilmiş şəxslərin sözügedən hərəkətləri ilə bağlı aparılan araşdırma zamanı hüquqları, eləcə də, səlahiyyətli şəxslərin vəzifələri ilə yanaşı, tətbiqi məqsədəuyğun hesab edilməyən bir sıra tənbeh tədbirlərini də sadalamışlar. Belə ki, işgəncə, qəddar, qeyri-humanist və yaxud ləyaqəti alçaldan rəftarla müşayiət edilən, ailə üzvləri ilə əlaqələrin tam qadağan olunması, pəncərəsi olmayan otağa keçirilmə, saxlanılma yerlərində işlərə cəlb edilmə, hərəkət azadlığının tamlıqla məhdudlaşdırılması, habelə kollektiv qaydada məsuliyyətə cəlb olunma kimi tənbehlərin tətbiq edilməməsi tövsiyə olunmuşdur. Eyni zamanda, tək saxlanma növündə tənbeh tədbirinin yalnız müstəsna hallarda, mümkün qədər qısa və

konkret müddətdə tətbiqi məqsədəuyğun hesab edilmişdir.

Azərbaycanda son yüzillikdə azadlıqdan məhrum edilmiş şəxslərə tətbiq olunan həvəsləndirmə və tənbeh tədbirlərinin qanunvericilikdəki təsbiti, eləcə də onların təşəkkülü və inkişaf dinamikası ilə bağlı apardığımız təhlillər bu prosesin uzunmüddətli xarakter daşıdığını göstərmişdir. Bu baxımdan, sözügedən tədbirlərin təkamül yolunun Azərbaycanın müvafiq dövrdə mövcud olmuş cəzaların icrası ilə bağlı normativ-hüquqi aktlara istinadən araşdırılması daha məqsədəuyğun hesab edilir. Həbs edilmiş şəxslərlə müqayisədə azadlıqdan məhrum edilmiş məhkumlara tətbiq edilən həvəsləndirmə və tənbeh tədbirləri, onların sayının çox olması, mahiyyətcə isə, daha yüksək humanistliyi və ya sərtliyi ilə diqqəti cəlb edir. Bu da sözügedən şəxslərin hüquqi vəziyyətlərinin bir-birindən xeyli fərqli olması ilə bağlıdır. Göstərilənləri nəzərə alaraq, ilkin olaraq azadlıqdan məhrum edilmiş məhkumlara tətbiq edilən həvəsləndirmə və tənbeh tədbirlərini, onların tətbiqi əsaslarını, qaydalarını nəzərdən keçirmək istərdik.

I. Arasdırmaya azadlıqdan məhrum etmə və azadlıqdan məhrum etmədən məcburi işlər növündə cəzalarının icrasını tənzimləyən ölkənin ilk məcəllələşdirilmiş qanunverici aktı olan, 25 may 1925-ci il tarixdən qüvvəyə minmiş Azərbaycan SSR-nin İslah-Əmək Məcəlləsi (bundan sonra ASSR İƏM) ilə başlayaraq qeyd etmək lazımdır ki, həmin qanunda azadlıqdan məhrum edilmiş məhkumlar barədə tətbiq edilə bilən həvəsləndirmə tədbirlərinin konkret siyahısı olmamışdır. Eyni zamanda, sözügedən şəxslərə həvəsləndirmə tədbirlərinə oxşar bir sıra imtiyazlar, yəni daha yüksək dərəcəyə keçirilmə, uzun müddətli görüş və qısa müddətli məzuniyyət verilməsi və s. təqdim edilirdi. Həmin imtiyazlar sözügedən məcəlləyə əsasən, məhkəmələrin nəzdində və azadlıqdan məhrum etmə yerlərində təşkil olunan, kollegial qaydada fəaliyyət göstərən və müxtəlif səlahiyyətlərə malik Bölüşdürmə və Müşahidə komissiyalarının, habelə yetkinlik yaşına çatmayan məhkumların saxlandığı Əmək evlərindəki Pedaqoji şuraların qərarları əsasında verilirdi [8, pp. 32–34].

ASSR İƏM-ə əsasən azadlıqdan məhrum etmə yerlərində müəyyən edilmiş rejim qaydalarını pozan məhkumlara, yol verilmiş pozuntunun xarakteri və xüsusiyyətləri nəzərə alınmaqla, aşağıdakı səkkiz növdə tənbeh tədbirləri tətbiq edilə bilərdi:

– töhmət elan edilməsi;

– bir ay ərzində görüş almaq hüququnun məhdudlaşdırılması və yaxud ləğv olunması;

– bir ay ərzində yazışma hüququnun məhdudlaşdırılması və yaxud ləğv edilməsi;

– bir ay ərzində sovqat almaq hüququnun məhdudlaşdırılması və yaxud ləğv olunması;

– bir ay ərzində şəxsi hesabda olan və xərclənməyə icazə verilən pulun məbləğinin azaldılması;

– hər üç gündən bir gəzintiyə çıxarılmaqla və hər gün isti yemək verilməklə, on dörd günədək təkadamlıq kameraya təcrid edilmə;

– təyin edilmiş dərəcənin aşağı salınması;

– digər azadlıqdan məhrum etmə yerlərinə keçirilmə.

Tənbeh tədbirləri, yalnız qeydə alınmış pozuntunun ətraflı araşdırılmasından, müvafiq məhkumun izahatının alınmasından sonra, bir qayda olaraq, müəssisə rəisinin qərarları ilə tətbiq edilirdi. Lakin yeddi gündən artıq təkadamlıq kameraya təcrid edilmə tədbiri, ASSR İƏM-ə uyğun olaraq Müşahidə komissiyasının razılığı, dərəcənin aşağı salınması və digər müəssisələrə keçirilmə isə, Müşahidə komissiyasının vəsatəti əsasında Bölüşdürmə komissiyasının qərarları ilə tətbiq oluna bilərdi. Yetkinlik yaşına çatmayanlar barəsində oxşar imtiyazların verilməsi səlahiyyəti, cəzanın çəkildiyi müvafiq müəssisələrin Pedaqoji şuralarına mənsub idi. Sözügedən məcəllədə məhkumların təcrid edilməsi üçün nəzərdə tutulmuş təkadamlıq kamera ilə bağlı tələblər də qoyulmuşdu. Belə ki, həmin kameralar ümumi qaydaya uyğun sahəyə malik və işıqlı olmalı idi.

Eyni zamanda vurğulamaq lazımdır ki, ASSR İƏM-i müvafiq cəzaların icra qaydalarını nizamlasa da, həmin qanunda həbs edilmiş (barəsində istintaq aparılan və ya işi məhkəmə icraatında olan) şəxslərin ilkin həbs evlərində saxlanılmasına dair müddəalar da yer almışdı. Məcəllədə göstərilirdi ki, xüsusi normaların nəzərdə tutulmadığı hallarda, həbs edilmiş şəxslərlə bağlı məsələlər ASSR İƏM-in məhkumlar üçün müəyyən etdiyi qaydalara uyğun həll edilməlidir. Müvafiq qayda həbs olunmuş şəxslərə həvəsləndirmə və tənbeh tədbirlərinin tətbiqinə də aid idi.

II. ASSR Ali Soveti Rəyasət Heyətinin 29 iyul 1961-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan SSR Daxili İşlər Nazirliyinin islah-əmək koloniyaları və həbsxanaları haqqında Əsasnamə" (bundan sonra Əsasnamə) ASSR İƏM-də təsbit edilmiş cəzaların icrası təcrübəsində mövcud olmuş sinfi yanaşma prinsipindən imtina edərək, azadlıqdan məhrum etmə yerləri sistemini, azadlıqdan məhrum etmə cəzasının icrası qayda və şərtlərini, habelə sözügedən şəxslərə tənbeh tədbirlərinin siyahısını, onların tətbiqi ilə əlaqədar vacib müddəaları nəzərəçarpacaq şəkildə dəyişdirmişdi. Lakin cəmi 61 maddədən ibarət olan və yalnız azadlıqdan məhrum etmə cəzasının icrasını tənzimləyən Əsasnamə, sözügedən cəzanın icrası ilə bağlı bir sıra institutlara, yəni məhkumların hüquq və azadlıqlarının həyata keçirilməsi mexanizmlərinə, azadlıqdan məhrum etmə yerlərinə başçəkmələrə, habelə islah-əmək müəssisələrinin fəaliyyəti ilə bağlı nizamlanması vacib olan digər məsələlərə ümumi şəkildə və ya ümumiyyətlə toxunmadığı səbəbindən, o, ASSR İƏM-i əvəz etməmiş və ayrı qanunvericilik aktı kimi fəaliyyət göstərmişdi. Əsasnamənin əksəriyyət müddəaları ASSR-nin yeni İslah-Əmək Məcəlləsi hazırlanarkən nəzərə alınmışdı.

Sözügedən Əsasnamə, ASSR İƏM-dən fərqli olaraq azadlıqdan məhrum edilmiş məhkumlara tətbiq edilən həvəsləndirmə tədbirlərinin siyahısını, onların tətbiqi əsaslarını və qaydalarını da özündə ehtiva etmişdi. Belə ki, nümunəvi əxlaqa və əməyə namuslu münasibətə görə məhkumlara aşağıdakı on növdə həvəsləndirmə tədbirləri tətbiq oluna bilərdi:

– təşəkkür elan etmək;

– istehsalat qabaqcılları lövhəsinə adını yazmaq;

– yarış qabaqcıllarını tərifnamə ilə təltif etmək və ya mükafatlandırmaq;

– növbədənkənar bağlama və ya azuqə almağa icazə vermək;

– həbsxanalarda gəzinti vaxtını artırmaq;

– müəyyən edilmiş normadan əlavə ən vacib əşyaları almağa icazə vermək;

– növbədənkənar görüşə icazə vermək;

– vaxtından əvvəl həbsxanadan islah-əmək koloniyasına köçürülməyə təqdim etmək;

– bağışlanmaya təqdim etmək;

– qanunla müəyyən edilmiş qaydada cəzadan şərti olaraq vaxtından əvvəl azad olunmağa təqdim etmək.

Göstərilən tədbirlərdən əlavə, müvafiq siyahıya daxil edilməsə də, Əsasnamədə ümumi, möhkəm, ciddi və xüsusi rejimli islah-əmək koloniyalarında saxlanma şəraitinin yaxşılaşdırılmasını ehtiva edən əlavə bir imtiyazın, yəni həvəsləndirmə tədbirinin təqdim olunması imkanı öz əksini tapmışdı. Həmin tədbir yaxşı davranışa və əməyə namuslu münasibətə görə, habelə təyin olunmuş cəza müddətinin müvafiq olaraq ən azı üçdə birini, yaxud yarısını çəkmiş məhkumlara tətbiq edilə bilərdi. Sözügedən əlavə imtiyaz ay ərzində şəxsi istifadə üçün xərclənməyə icazə verilən pul məbləğinin artırılmasını, qohumlarla əlavə bir görüşü, habelə bir əlavə bağlama alınması imkanını nəzərdə tuturdu.

Əsasnamədə rejimi pozan və işdən boyun qaçıran məhkumlara ASSR İƏM-lə tətbiq edilə bilən tənbeh tədbirləri ümumən saxlanılmaqla, onların növləri artırılaraq, sayca on birə çatdırılmışdı. Həmin tədbirlərə aşağıdakılar daxil idi:

– xəbərdarlıq;

– şifahi və ya yazılı əmrlə elan edilmiş töhmət;

– azadlıqdan məhrum etmə yerlərində binaların və ərazinin yığışdırılması üçün növbədənkənar növbətçilik;

– növbəti bağlama və ya azuqə almaq hüququndan məhrum etmə;

– üç ayadək müddətə ən vacib şeylərin alınmasını qadağan etmək;

– növbəti görüşdən məhrum etmək;

– azaldılmış yemək normasına keçirmək;

– on beş sutkayadək müddətə cərimə izolyatoruna salmaq;

– on beş sutkayadək müddətə karserə salmaq (həbsxanada);

– ümumi və möhkəm rejimli islah-əmək koloniyalarında üç ayadək, ciddi rejimli koloniyalarda altı ayadək müddətə kamera tipli otaqlara, həbsxanalarda isə, altı ayadək ciddi rejimə keçirmək;

– təqdim edilmiş əlavə imtiyazlardan məhrum etmək.

Kamera tipli otaqlara keçirmək növündə tənbeh tədbiri, digər tənbehlər nəticə vermədikdə, islah-əmək koloniyasının müdiriyyətinin yerli zəhmətkeş deputatları Sovetlərinin Müşahidə komissiyası (bundan sonra Müşahidə komissiyası) ilə razılaşdırılmış qərarına əsasən, həbsxanalarda ciddi rejimə keçirilmə isə, prokurorla razılaşdırılmaqla tətbiq oluna bilərdi. Əsasnamədə həvəsləndirmə və tənbeh tədbirlərini tətbiq edən vəzifəli şəxslərin siyahısı göstərilməsə də, onlar ASSR İƏM-ə uyğun olaraq müəssisə rəisinin qərarları ilə verilirdi.

III. Sabiq SSRİ-də siyasi repressiya illərindən sonra islah-əmək qanunvericiliyinin təkmilləşdirilməsi məqsədilə 11 iyul 1969-cu il tarixli Qanunla "SSRİ və müttəfiq respublikaların islah-əmək qanunvericiliyinin Əsasları" (bundan sonra Əsaslar) təsdiq olunmuşdu. Həmin Əsaslar SSRİ-yə daxil olan müttəfiq respublikalar üçün cəzaların icrasının vahid prinsiplərini və qaydalarını müəyyən etmişdi. Sözügedən Əsaslarda, məhkumlara yaxşı davranışa və əməyə vicdanlı münasibətə görə Əsasnamədə nəzərdə tutulmuş həvəsləndirmə tədbirlərinə oxşar olmaqla, on növdə tədbirin tətbiqi təsbit edilmişdi. Həmin tədbirlərin siyahısına aşagıdakı həvəsləndirmələr daxil idi:

– təşəkkür elan etmək;

– istehsalat qabaqcılları lövhəsinə yazmaq;

– tərifnamə ilə təltif etmək;

– işdə yaxşı göstəricilərə görə pulla mükafatlandırmaq;

– il ərzində bir əlavə bağlama və ya sovqat almağa icazə vermək;

– il ərzində bir əlavə qısa və ya uzun müddətli görüş almağa icazə vermək;

– bayram günlərində ərzaq məhsulları və ən zəruri malların əldə edilməsi üçün əlavə olaraq iki manatadək, tərbiyə-əmək koloniyalarında isə, ay ərzində üç manatadək pul xərcləməyə icazə vermək;

– əvvəllər verilmiş tənbehi vaxtından əvvəl götürmək;

– xüsusi rejimli islah-əmək koloniyalarında cəza müddətinin azı üçdə bir hissəsini çəkmiş məhkumları kamera tipli otaqlardan həmin koloniyalardakı adi yaşayış otaqlarına keçirmək;

– həbsxanalarda ümumi rejimdə saxlanılan məhkumların gəzinti müddətini iki, ciddi rejimdə saxlanılan məhkumların gəzinti vaxtını isə, bir saatadək artırmaq.

Habelə, sözügedən qanuna əsasən islah yoluna möhkəm qədəm qoymuş məhkumlar SSR İttifaqı və müttəfiq respublikaların qanunvericiliyi ilə müəyyən edilmiş qaydada islah-əmək koloniyalarının müdiriyyəti tərəfindən cəzanın ardını çəkmək üçün:

– cəza müddətinin azı yarısı çəkildikdən sonra həbsxanadan islah-əmək koloniyasına;

–cəza müddətinin azı yarısı çəkildikdən sonra xüsusi rejimli cəzaçəkmə müəssisəsindən ciddi rejimli koloniyaya;

– ümumi, möhkəm, ciddi rejimli islah-əmək koloniyalarından, əgər qanunvericiliyə uyğun olaraq həmin məhkumlara çəzadan şərti olaraq vaxtından əvvəl azad etmə tətbiq oluna bilərdisə, onlar cəza müddətinin azı üçdə bir hissəsini çəkdikdən sonra, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə tətbiq edilməyən şəxslər isə, cəza müddətinin azı ücdə ikisini çəkdikdən sonra islah-əmək koloniya-məntəqələrinə keçirilməyə təqdim edilə bilərdilər.

Eyni zamanda, islah olunduqlarını nümunəvi davranışı və əməyə, təlimə vicdanlı münasibəti ilə sübut etmiş məhkumlar islah-əmək müəssisələrinin müdiriyyəti tərəfindən qanunla müəyyən edilmiş qaydada cəzadan şərti olaraq vaxtından əvvəl azad

olunmağa və ya cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəz edilməsinə təqdim oluna bilərdilər.

Əsaslara uyğun olaraq cəzanın çəkilməsi rejiminin tələblərinin pozulmasına görə məhkumlar barədə Əsasnamədə göstərilmiş tənbeh tədbirlərinə oxşar, lakin sayı azaldılmaqla, aşağıda göstərilən doqquz növdə tənbehlər tətbiq oluna bilərdi:

– xəbərdarlıq və ya töhmət elan etmək;

– azadlıqdan məhrum etmə yerlərində binaların və ərazinin yığışdırılması üçün növbədənkənar növbətçilik;

– tərbiyə-əmək koloniyalarında saxlanılan məhkumları bir dəfə kinoya, konsertə tamaşadan, idman oyunlarında iştirakdan məhrum etmək;

– növbəti görüşdən məhrum etmək;

– növbəti bağlama və ya sovqat almaq hüququndan məhrum etmək və bir aylıq müddətə ərzaq məhsullarının əldə olunmasını qadağan etmək;

– yaxşılaşdırılmış saxlanma şəraitini ləğv etmək;

– islah-əmək koloniyalarında saxlanılan məhkumları on beş günədək müddətə işə və ya təlimə çıxarılmaqla, yaxud çıxarılmamaqla cərimə təcridxanasına, tərbiyə-əmək koloniyalarında saxlanılanları isə, on günədək müddətə intizam təcridxanasına keçirmək;

– həbsxanalarda saxlanılan məhkumları on beş günədək müddətə işə və ya təlimə çıxarılmaqla, yaxud çıxarılmamaqla karserə keçirmək;

– ümumi, möhkəm ciddi rejimli islah-əmək koloniyalarında məhkumları altı ayadək müddətə kamera tipli otaqlara, xüsusi rejimli islah-əmək koloniyalarında məhkumları bir ilədək müddətə birnəfərlik kameralara, həbsxanalarda saxlanılan məhkumları isə, iki aydan altı ayadək müddətə ciddi rejimə, habelə xüsusi rejimli islah-əmək koloniyalarında adi yaşayış binalarında saxlanılan məhkumları həmin koloniyada kamera tipli binaya keçirmək.

Eyni zamanda, isdən azad edilmiş hamilə, yanlarında südəmər uşaqları olan qadınların cərimə təcridxanasına, kamera tipli otaqlara, həbsxanada isə, karserə və ciddi rejimə keçirilməsi qadağan edilmişdi. Habelə, Əsaslara uyğun olaraq SSR İttifaqı və müttəfiq respublikaların qanunvericiliyi ilə müəyyən edilmiş qaydada, rejimin tələblərini qəsdən pozan məhkumlar cəzanı çəkmək üçün koloniya-məntəqədən onlar üçün müəyyən edilmiş rejim növlü islah-əmək koloniyasına, xüsusi rejimli islah-əmək koloniyasından ciddi rejimli koloniyaya keçirilmiş məhkumlar xüsusi rejimli koloniyaya, müxtəlif rejimli islah-əmək koloniyalarından cəzanın qalan müddətini koloniyada çəkməklə, üç ildən çox olmayan müddətə həbsxanaya, ümumi rejimli tərbiyə-əmək koloniyasından möhkəm rejimli tərbiyə-əmək koloniyasına keçirilməyə təqdim edilə bilərdilər.

Eyni zamanda, əlavə olaraq göstərilirdi ki, tətbiq edilən tənbeh tədbirləri məhkumun törətdiyi xətanın ağırlığına və xarakterinə uyğun olmalıdır. Məhkum verilmiş tənbehi çəkib qurtardığı gündən bir il ərzində barəsində yeni tənbeh tədbiri tətbiq edilmədikdə, tənbeh olunmamış hesab edilirdi. Əsaslara uyğun olaraq, məhkumlara həvəsləndirmə və təhbeh tədbirlərinin tətbiqi qaydası müttəfiq respublikaların islah-əmək məcəllələri ilə müəyyən edilməli idi.

IV. 23 dekabr 1970-ci il tarixdə qəbul edilmiş ASSR-nin ikinci İslah-Əmək Məcəlləsi (bundan sonra İƏM) 1971-ci ilin 1 iyunundan qüvvəyə minmişdi. Sabiq SSRİ-nin digər müttəfiq respublikalarında olduğu kimi Azərbaycanda da sözügedən İƏM-ə 11 iyul 1969-cu il tarixli Əsasların müddəaları, demək olar ki, tamlıqla daxil edilmişdi. Eyni zamanda, yeni İƏM-də 1961-ci ilin müvafiq Əsasnaməsinin müddəaları da nəzərə alınmışdı. Göstərilənlər azadlıqdan məhrum edilmiş məhkumlara tətbiq edilən həvəsləndirmə və tənbeh tədbirlərinə, onların tətbiqi əsaslarına və qaydalarına da aiddir. Qeyd olunmalıdır ki, İƏM-də həvəsləndirmə və tənbeh tədbirlərinə, onları tətbiqi qaydalarına ayrıca on beşinci fəsil və yeddi maddə həsr edilmişdi. Məcəllənin 65-ci maddəsində təsbit edilmiş həvəsləndirmə tədbirləri müvafiq Əsasların 33-cü maddəsinə daxil edilmiş sözügedən tədbirlərin növlərini, onların məzmununu demək olar ki, tamlıqla təkrarlayırdı. Lakin, Əsaslardan fərqli olaraq İƏM-də həvəsləndirmə qaydasında islah-əmək koloniya-məntəqələrinə keçirilməyə təqdim edilməsi qadağan olunmuş məhkumların siyahısı da verilmişdi. Həmin məhkumlar aşağıdakılar olmuşdur:

– xüsusi təhlükəli residivistlər;

– xüsusi təhlükəli dövləti cinayətlərə görə məhkum olunmuş şəxslər;

– ölüm cəzası əfv qaydasında azadlıqdan məhrum etmə cəzası ilə əvəz olunmuş şəxslər (bu bəndə 10 fevral 1998-ci il tarixli Qanunla dəyişiklik olunmuş, "ölüm" sözü "ömürlük azadlıqdan məhrum etmə" ilə əvəz edilmişdi);

– törətdiyi cinayətə görə cəza ilə yanaşı alkoqolizmdən, narkomaniyadan və ya zöhrəvi xəstəlikdən məcburi müalicə təyin olunmuş, lakin həmin müalicəni keçməmiş şəxslər;

– qəsdən törədilmiş cinayətə görə əvvəllər iki dəfədən artıq azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslər, əgər əvvəlki cinayətə görə məhkumluq qanunla müəyyən edilmiş qaydada götürülməmişdirsə və ya ödənilməmişdirsə (bu bənd 26 fevral 1997-ci il tarixli qanunla əlavə edilmişdi).

Tənbeh tədbirlərinə gəldikdə, qeyd olunmalıdır ki, Əsasların 34-cü maddəsindəki göstərilmiş sözügedən tədbirlərinin növləri, məzmunu dəyişdirilmədən İƏM-in 67-ci maddəsində öz əksini tapmışdı. Eyni zamanda, tənbeh tədbirləri sırasına əlavə olaraq, xüsusi rejimli islah-əmək koloniyalarında adi yaşayış binalarında saxlanılan məhkumları həmin koloniyada kamera tipli otaqlara keçirmək və həvəsləndirmə qaydasında xüsusi rejimli islah-əmək koloniyalarında kamera tipli otaqlardan həmin koloniyadakı adi yaşayış otaqlarına keçirilmiş məhkumların isə, həmin koloniyada kamera tipli otaqlara qaytarılması növündə iki yeni tədbir əlavə edilmişdi. İƏM-də, həmçinin azadlıqdan məhrum edilmiş məhkumlara istər həvəsləndirmə, istərsə tənbeh tədbirlərinin tətbiqi hüququna mailk vəzifəli şəxslərin siyahısı, kamera tipli otaqlarda, birnəfərlik kameralarda, cərimə və intizam təcridxanalarında, habelə həbsxanada karserə salınmış məhkumların saxlanılma şəraiti müyyənləşdirilmişdi. Eyni zamanda, İƏM-də tənbeh tədbirlərinin tətbiqi qaydası ilə əlaqədar

normada qeyd edilirdi ki, eyni vaxtda törədilmiş bir neçə pozuntuya görə yalnız bir tənbeh tədbiri tətbiq oluna bilər. Tənbeh, pozuntunun aşkara çıxarıldığı gündən ən geci on sutka ərzində, əgər pozuntu ilə əlaqədar yoxlama aparılırdısa, onda yoxlamanın başa catdığı gün tətbiq edilməli idi. Əgər tənbeh verildiyi gündən bir ay ərzində icra edilməmişdisə, o, bu halda icra oluna bilməzdi. Məhkum ona verilmiş tənbeh tədbirindən yuxarı vəzifəli şəxsə şikayət verə bilərdi, lakin belə halda tənbehin icrası dayandırılmırdı. Həvəsləndirmə və tənbeh tədbirləri, bir qayda olaraq, yazılı qaydada tətbiq edilirdi, eyni zamanda, xəbərdarlıq, töhmət, binaların və ərazinin yığışdırılması üçün növbədənkənar növbətçilik, tərbiyə-əmək koloniyalarında saxlanılan məhkumları bir dəfə kinoya, konsertə tamaşadan, idman oyunlarında iştirakdan məhrum etmək növündə tənbehlər şifahi qaydada da tətbiq oluna bilərdi.

Yuxarıda göstərilən həvəsləndirmə və tənbeh tədbirlərini tətbiq etmək islah-əmək koloniyasının rəisinin səlahiyyətinə daxil idi. Yalnız, xüsusi rejimli islah-əmək koloniyalarında adi yaşayış binalarında saxlanılan məhkumların həmin koloniyada kamera tipli otaqlara keçirilməsi növündə tənbeh tədbiri Müşahidə komissiyası ilə razılaşdırılmadan sonra tətbiq edilə bilərdi. Eyni zamanda, islah-əmək koloniyalarının rəis müavinləri kamera tipli otaqlara, birnəfərlik kameralara, habelə cərimə, intizam təcridxanalarına və karserə keçirmək növündə tənbehlər istisna olmaqla, digər həvəsləndirmə və tənbeh tədbirlərini tətbiq etmək hüququna malik idilər. Həmçinin, islah-əmək koloniyalarında dəstə rəisləri, tərbiyə-əmək koloniyalarında baş tərbiyəçilər təşəkkür elan etmək, ərzaq məhsulları və ən zəruri malların əldə edilməsi üçün əlavə pul xərcləməyə icazə vermək, habelə müvafiq vəzifəli şəxslər tərəfindən əvvəllər verilmiş tənbehin vaxtından əvvəl götürülməsi ilə bağlı həvəsləndirmə, xəbərdarlıq və ya töhmət elan etmək, binaların və ərazinin yığışdırılması üçün növbədənkənar növbətçilik təyin etmək növündə tənbeh tədbirlərini tətbiq etmək hüququna malik idilər. Eyni zamanda, Əsaslarda təsbit olunmuş, rejimin tələblərini qəsdən pozan məhkumların tənbeh tədbiri qismində cəza çəkdikləri müəssisələrin növünün dəyişdirilməsi, yəni onların rejiminin sərtliyinin artırılması ilə bağlı məhkəməyə təqdimat verilməsi ilə bağlı müddəalar olduğu kimi İƏM-ə əlavə edilmişdi.

Sözügedən İƏM-də təsbit edilmiş həvəsləndirmə və tənbeh tədbirləri Azərbaycan Respublikasının müstəqilliyinin bərpasından sonra qəbul olunmuş ölkənin yeni Konstitusiyasının müddəaları nəzərə alınaraq, nəzərəçarpacaq dərəcədə yeniləşməyə və təkmilləşdirilməyə məruz qalmışdı. Belə ki, Azərbaycan Respublikasının 7 fevral 1997-ci il tarixli qanunu ilə İƏM-ə edilmiş mühüm dəyişikliklərlə məhkumların hüquq və azadlıqlarının, onlara şamil oluna biləcək imtiyazların dairəsi xeyli genişləndirilmiş, azadlıqdan məhrum etmə cəzasının icra qayda və şərtləri əhəmiyyətli dərəcədə humanistləşdirilmiş, islah işinə xidmət etməyən bir qrup qadağalar ləğv edilmişdi [9, Səh. 22–24]. Qeyd olunanlar İƏM-in həvəsləndirmə və tənbeh tədbirlərinin tətbiqini nəzərdə tutan xüsusi fəslinə və müvafiq maddələrinə də aiddir. Belə ki, telefon danışıqları ilə bağlı yeni hüququn təsbit edilməsi ilə əlaqədar məhkumlara telefon danışığından istifadəyə icazə verilməsi növündə yeni həvəsləndirmə tədbiri müəyyən olunmuşdu. Habelə, yeyinti məhsulları və ən zəruri mallar almaq məqsədilə əlavə xərclənməyə icazə verilən pulun məbləği, islah-əmək koloniyalarında məhkumların aldıqları aylıq əmək haqqı məbləğinin on beş, tərbiyə-əmək koloniyalarında isə, iyirmi faizədək artırılmış və bu tədbirin yalnız bayram günləri münasibəti ilə tətbiqi üzrə mövcud olmuş şərt ləğv edilmişdi.

Tənbeh tədbirlərinin siyahısı da kifayət qədər dəyişikliklərə məruz qalmış, növbəti görüşdən, bağlama və ya sovqat almaq hüquqlarından məhrum etmək və bir aylıq müddətə ərzaq məhsullarının əldə olunmasını qadağan etmək növündə tənbehlər məcəllədən çıxarılmışdı. Habelə, azadlıqdan məhrum etmə yerlərində binaların və ərazinin yığışdırılması üçün növbədənkənar növbətçiliyin tətbiqi, mühafizə qurğuları istisna olmaqla müəyyən edilmişdi. Cərimə təcridxanasına, kamera tipli otaqlara, həbsxanada isə, karserə və ciddi rejimə keçirilməsi qadağan olunmuş məhkumların siyahısına birinci qrup əlillər də əlavə edilmişdi. Həmçinin, özlərindən asılı olmayan səbəblərə görə iş normalarını və ya növbə tapşırıqlarını yerinə yetirməyən məhkumların məsuliyyətə cəlb edilməsi, yəni onlar barədə tənbeh tədbirlərinin tətbiqinə qadağa qoyulmuşdu. Eyni zamanda, bir qrup sərt tənbeh tədbirlərinin bir təqvim ilində tətbiqi ilə bağlı maksimal müddətlər müəyyən edilmişdi. Belə ki, cərimə təcridxanasında maksimal saxlanma müddəti altmış gün, kamera tipli otaqlarda altı ay, tərbiyə-əmək koloniyasının intizam təcridxanasında isə, qırx gün müəyyən olunmuşdu. Əlavə olaraq, cərimə təcridxanasına və karserə keçirilmiş məhkumların saxlanma şəraiti də nəzərəcarpacaq şəkildə humanistləşdirilmişdi. Belə ki, sözügedən yerlərdə saxlanılan şəxslərin fərdi yataq yeri, yataq ləvazimatları ilə təmin edilməsi, onlara hər gün açıq havada müvafiq olaraq bir saat və ya otuz dəqiqəlik gəzinti verilməsi nəzərdə tutulmuşdu. Cərimə, intizam təcridxanalarına, karserə, ümumi, möhkəm, ciddi rejimli islah-əmək koloniyalarında kamera tipli otaqlara, xüsusi rejimli islah-əmək koloniyalarında təkadamlıq kameraya keçirilmiş məhkumların azaldılmış və aşağı kaloriliyə malik normalara uyğun yeməklə təmin olunması, habelə onlara isti yeməyin günaşırı verilməsi ilə bağlı müvafiq normalar da ləğv edilmişdi.

V. 2000-ci ilin iyul ayının 14-də qəbul edilmiş və həmin ilin 1 sentyabrından qüvvəyə minmiş AR CİM-i ölkədə həyata keçirilən məhkəmə-hüquq islahatlarının məntiqi nəticəsi olaraq, Azərbaycan dövlətinin qoşulduğu müxtəlif beynəlxalq aktlardan irəli gələn öhdəliklər, məhkumlarla davranışa həsr olunmuş beynəlxalq standartlar nəzərə alınmaqla qəbul edilmiş, cəzaların icrası qayda və şərtlərini ətraflı tənzimləyən vahid, kifayət qədər humanistliyi özündə ehtiva etmiş müasir qanun kimi xarakterizə olunur [10, Səh. 24]. AR CİM-in layihəsi hazırlanarkən Müstəqil Dövlətlər Birliyinin Parlamentlərarası Assambleyasının 2 noyabr 1996-ci il tarixli qərarı ilə iştirakçı dövlətlər üçün

nəzərdə tutulmuş model Cəza-icra məcəlləsinin müddəalarına da kifayət qədər istinad olunmuşdur. Göstərilənlər həvəsləndirmə və tənbeh tədbirlərini nəzərdə tutan normalara da aiddir. Lakin model məcəllədən fərqli olaraq, AR CİM-i saxlanılma şəraitini yaxşılaşdırmaq, xüsusi rejimli cəzaçəkmə müəssisələrində məhkumları kamera tipli otaqlardan adi yaşayış binalarına keçirmək növündə iki həvəsləndirmə, xəbərdarlıq növündə isə, bir tənbeh tədbirini müvafiq siyahılara əlavə etmişdir.

Sözügedən məcəlləyə azadlıqdan məhrum edilmiş məhkumlara həvəsləndirmə və tənbeh tədbirlərini, onların tətbiqini tənzimləyən ümumən on bir maddə (105–111, 124-1, 125–127-ci maddələr) daxil edilmişdir. Vurğulamaq lazımdır ki, sonuncu İƏM-lə müqayisədə AR CİM-ə həvəsləndirmə və tənbeh tədbirləri, onların tətbiqi prosedurları ilə əlaqədar xeyli dəyişikliklər və yeniliklər edilmişdir. İlk növbədə, tənbeh tədbirlərindən fərqli olaraq, həvəsləndirmə tədbirlərin tətbiqi əsasları bir qədər genişləndirilmişdir. Eyni zamanda, məhkumu hədiyyə ilə mükafatlandırmaq növündə yeni həvəsləndirmə tədbiri nəzərdə tutulmuş, saxlanılma şəraitinin yaxşılaşdırılması növündə tədbir ümumi siyahıya daxil edilmişdir. Habelə, həvəsləndirmə qaydasında bağlama və sovqat almağa icazə vermək tədbirinin məzmununa banderol almağa icazə verilməsi də əlavə edilmişdir. İstehsalat qabaqcılları lövhəsinə yazmaq, tərifnamə ilə təltif etmək, həbsxanada saxlanılan məhkumların gəzinti vaxtını artırmaq növündə tədbirlər isə, müvafiq siyahıdan çıxarılmışdır.

AR CİM-də əvvəlki qanunvericilik aktlarından fərqli olaraq, məhkuma əvvəllər verilmiş tənbehin həvəsləndirmə qaydasında vaxtından əvvəl götürülməsi ilə bağlı xüsusi qaydalar müəyyən olunmuşdur. Belə ki, qanunun tələbinə əsasən xəbərdarlıq, töhmət növündə tənbeh, onun verilməsi günündən ən azı üç ay, cərimə təcridxanasına və xüsusi rejimli cəzaçəkmə müəssisələrində saxlanılan məhkumları adi yaşayış binalarından kamera tipli otaqlara keçirmə növündə tənbeh isə, tətbiqindən ən azı altı keçdikdən sonra götürülə bilər. Eyni zamanda, tənbeh tədbiri kimi xüsusi rejimli cəzaçəkmə müəssisələrində adi yaşayış binalarından kamera tipli otaqlara keçirilmiş məhkumlara yenidən adi yaşayış binalarına keçirilmə növündə həvəsləndirmə tədbirinin, tənbehin verilməsi günündən ən azı bir il keçdikdən sonra tətbiqi nəzərdə tutulmuşdur.

Qüvvəyə mindiyi gündən sonra sözügedən məcəlləyə dəyişikliklər edilməklə həvəsləndirmə tədbirlərinin dairəsi bir qədər genişləndirilmişdir. Belə ki, 24 iyun 2008-ci il tarixli qanunla AR CİM-ə xüsusi rejimli cəzaçəkmə müəssisələrində və həbsxanalarda kameralarda saxlanılan məhkumlara bir ay ərzində bir saatadək əlavə gəzintiyə, Tərbiyə müəssisələrində yetkinlik yaşına çatmayan məhkumlara müəssisə nümayəndəsinin müşayiəti ilə müəssisənin hüdudlarından kənarda idman, mədəni-kütləvi və digər tədbirlərə bir dəfə tamaşa etməyə, habelə 5 noyabr 2022-ci il tarixli Qanunla isə, əlavə videogörüşə icazə verilməsi növündə həvəsləndirmə tədbirlərini nəzərdə tutan yeni üç maddə əlavə edilmişdir. Göstərilən dövr ərzində həvəsləndirmə qaydasında məhkumlara qida məhsulları və ən zəruri mallar əldə edilməsi üçün ay ərzində xərclənməyə icazə verilən pulun məbləği də artırılmışdır, bu da ölkədə qeydə alınmış inflyasiyanın, yəni qiymətlərin, o cümlədən sözügedən məhsulların qiymətinin artmasının nəzərə alınması ilə də bağlıdır.

Tənbeh tədbirlərinə gəldikdə qeyd olunmalıdır ki, sabiq İƏM-də nəzərdə tutulmuş, keşikçi qurğuları istina olmaqla, azadlıqdan məhrum etmə yerlərinin binalarının və ərazisinin yığışdırılması üçün növbədənkənar növbətçilik, tərbiyə-əmək koloniyalarında saxlanılan məhkumları bir dəfə kinoya, konsertə tamaşadan, idman oyunlarında iştirakdan məhrum etmək, habelə, məhkumları işə və təlimə çıxarılmaqla müşayiət olunan cərimə təcridxanasına, təkadamlıq kameralara, karserə salmaq növündə tənbeh tədbirləri AR CİM-ə daxil edilməmişdir. Tərbiyə müəssisələrində məhkumlara təhsili davam etdirmək şərtilə, intizam təcridxanasına keçirmək növündə tənbeh tədbirinin müddəti yeddi günədək azaldılmış, onlara hər gün təqdim edilməsi nəzərdə tutulan gəzintinin müddəti bir saatdan iki saatadək artırılmış, bir təqvim ili ərzində həmin yerlərdə saxlanma müddəti isə, on gün azaldılmaqla, cəmi otuz gün müəyyən olunmuşdur. Eyni zamanda, xüsusi rejimli cəzaçəkmə müəssisəsində birnəfərlik kameralara keçirmək növündə tədbirin müddəti bir ildən altı aya endirilmişdir. Habelə, müxtəlif rejimli cəzaçəkmə müəssisələrində olduğu kimi, həbsxanada da cərimə təcridxanasında (əvvəllər karserdə) il ərzində maksimal saxlanma müddəti altmış gün, kamera tipli otaqlarda, birnəfərlik kameralarda, həbsxanalarda ciddi saxlanma şəraitində isə, altı ay müəyyən edilmişdir. Eyni zamanda, AR CİM-i bütün məhkum qadınların kamera tipli otaqlara keçirilməsinə qadağan qoymuşdur. Habelə, İƏM-də hamilə, cəzaçəkmə müəssisəsinin nəzdindəki uşaq evlərində uşaqları olan məhkum qadınların, birinci qrup məhkum əlillərin yəni, orqanizmin funksiyalarının 81-100 faizədək pozulması müəyyən edilmiş şəxslərin cərimə təcridxanasına, həbsxanada karserə, ciddi rejimə, sonuncuların, habelə kamera tipli otaqlara keçirilməsi ilə bağlı qadaganlar ləğv olunmuş, mahiyyət baxımından oxşar olduqları nəzərə alınaraq, karserın adı cərimə təcridxanası kimi təsbit edilmişdir.

AR CİM-in fəaliyyətə başlamasından iyirmi beş ildən artıq bir müddət keçməsinə baxmayaraq, mövcud siyahıya yeni tənbeh tədbiri daxil edilməmişdir. Eyni zamanda, 24 iyun 2008-ci il tarixli Qanunla edilmiş dəyişikliyə uyğun olaraq, həvəsləndirmə tədbiri qaydasında saxlanılma şəraiti yaxşılaşdırılmış məhkumlar barəsində tənbeh tədbirləri tətbiq edildiyi təqdirdə, müvafiq şəraitin ləğv edilməsi də nəzərdə tutulmuşdur. Habelə, 31 may 2011-ci il tarixli Qanunla məntəqə tipli cəzaçəkmə müəssisələrində cəzanın icrası şərtlərinin dəyişdirilməsi ilə bağlı sözügedən müəssisələrdə cəzanın icrası qaydalarını qərəzli pozan məhkumlara tətbiq edilməsi nəzərdə tutulan tənbeh tədbirlərinin də məzmunu dəyişdirilmiş, onlar barəsində bir ay müddətində müəssisədən kənara çıxmağın və ya üç ay ərzində istirahət və bayram günlərini cəzaçəkmə müəssisəsindən kənarda keçirməyin qadağan edilməsi kimi tədbirlər nəzərdə tutulmuşdur.

Cəzaçəkmə müəssisələrində məhkumlara həvəsləndirmə və tənbeh tədbirlərinin tətbiqi ilə bağlı qeydiyyatın aparılması, cərimə, intizam təcridxanalarının, камера tipli otaqların və birnəfərlik kameraların quruluşu, onların avadanlıq və əşyalarla təchiz olunması, habelə tənbeh tədbirindən şikayətin verilməsinin yuxarı instansiyası kimi Azərbaycan Respublikasının Ədliyyə naziri, yaxud onun müavini– Penitensiar xidmətin rəisinin müəyyən edilməsi ilə bağlı məsələlər cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları (bundan sonra DİQ) ilə tənzimlənmişdir.

AR CİM-də digər yenilik kimi, əvvəllər cəzaların icrası ilə əlaqədar qanunvericilik aktlarında öz əksini tapmış həvəsləndirmə tədbirləri qismində nəzərdə tutulmuş, islah olunduqlarını sübut etmiş məhkumların qanunla müəyyən edilmiş qaydada cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəz etmə ilə bağlı məhkəməyə təqdim olunmasına fərqli yanaşmasını qeyd etmək lazımdır. Belə ki, məhkəmələrə sözügedən təqdim edilmələr həvəsləndirmə tədbirlərinin siyahısına daxil edilməmişdir. Fikrimizcə, belə yanaşma kifayət qədər məntiqlidir. Çünki, ilkin olaraq, qüvvədə olan qanunvericiliyə əsasən məhkumlar özləri sərbəst şəkildə, habelə nümayəndələri vasitəsi ilə cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəz edilməsi ilə əlaqədar məhkəməyə müraciət etmək hüququna malikdirlər. Sözügedən hüquq AR CİM-in 10-cu maddəsində məhkumun əsas hüquqları sırasına daxil edilmiş, habelə AR CPM-in 509-cu maddəsində təsbit olunmuşdur. Əlavə olaraq, hökmün icrası zamanı məhkumun sözügedən imtiyazlardan bəhrələnməsi perspektivi, yəni onun hüquqi vəziyyətinin dəyişməsi və ya yaxşılaşdırılması imkanı, bilavasitə müəssisə rəisinin yox, yalnız məhkəmənin müvafiq qərarından asılıdır.

Eyni zamanda, ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslər istisna olmaqla, AR CİM-in 105 və 107-ci maddələrində həmin məcəllənin 70-ci maddəsində nəzərdə tutulmuş qaydada müsbət xarakterizə olunan və ya cəzanın icrası qaydalarını qərəzli pozan məhkumların cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi ilə məhkəməyə təqdimatın verilməsini həvəsləndirmə və ya tənbeh tədbiri kimi nəzərdə tutulması, fikrimizcə, bir qədər mübahisəlidir. Artıq yuxarıda qeyd olunduğu kimi, məhkumlar şəxsən və ya nümayəndələri vasitəsi ilə cəzaçəkmə müəssisəsinin növünün daha yüngülünə dəyişdirilməsi ilə bağlı da məhkəməyə müraciət etmək hüququna malikdirlər. Eyni zamanda, cəzaçəkmə müəssisəsinin müdiriyyəti məhkuma cəzaçəkmə müəssisəsinin növünün həvəsləndirmə və ya tənbeh tədbirindən əlavə, AR CPM-in 514-cü maddəsinə uyğun olaraq dəyişdirilməsi ilə bağlı təqdimat vermək hüququna malikdir. Lakin, məhkəməyə sözügedən təqdimatlar, bir qayda olaraq, AR CİM-in 70, 105 və 107-ci maddələrinə yox, AR CPM-də təsbit edimiş müvafiq normalara istinad edilməklə verilir. Qeyd olunanlar həvəsləndirmə tədbirlərinin siyahısını açıqlayan AR CİM-in 105-ci maddəsində məhkumun əfv edilməsi ilə bağlı cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən vəsatətin qaldırılması ilə bağlı normaya da aiddir. Belə ki, AR CİM-in 10-cu maddəsinə əsasən məhkumun əfvetmə ilə bağlı Azərbaycan Respublikasının Prezidentinə bilavasitə və ya qanuni nümayəndələrinin vasitəsilə müraciət etməsi də, onun əsas hüquqları sırasına daxil edilmişdir. Təcrübədə məhkumlar, əfv edilməklə əlaqədar müəyyən olunmuş qaydalara riayət etməklə, həmin hüquqdan kifayət qədər tez-tez istifadə edirlər. Azərbaycan Respublikası Prezidentinin 1995–2026-ci illər ərzində imzaladığı 72 əfv fərmanı və sərəncamının təhlili göstərdi ki, ümumən əfv edilmiş 10 min 182 məhkum [11, p. 33], bilavasitə özlərinin, habelə onların ailə üzvlərinin, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin, insan hüquqlarının müdafiəsi təşkilatlarının dövlət başçısına ünvanlanmış müraciətləri əsasında bağışlanmışlar. Sözügedən fərman və sərəncamlarda bir dəfə də olsun əfvetmə ilə əlaqədar Azərbaycan Respublikasının Prezidentinə cəzaçəkmə müəssisələrinin müdiriyyəti tərəfindən ünvanlanmış vəsatətlərə istinad edilməmisdir. Habelə, əfvetmə ilə bağlı vəsatətin verilməsi üçün məhkumun razılığı tələb olunur, halbuki digər həvəsləndirmə tədbirlərinin tətbiqi ilə bağlı qanunda cəza çəkən şəxslə razılaşdırılma ilə əlaqədar heç bir müddəa nəzərdə tutulmamışdır. Əlavə olaraq, göstərilən tədbir, məhkumun hüquqi vəziyyətini birbasa, yəni müəssisə rəisinin qərarı ilə deyil, yalnız Azərbaycan Respublikası Prezidentinin sərəncamından sonra dəyişdirə bilər. Həmçinin, vurğulamaq lazımdır ki, Azərbaycan Respublikası Prezidenti tərəfindən təqdim edilən sözügedən imtiyaz, yəni bağışlanma, cəzaların icrası ilə bağlı qanunvericiliyə yox, ölkənin Konstitusiyasına istinad edilməklə qəbul edilir. Qeyd olunanları yekunlaşdırmaqla, AR CİM-in 70-ci maddəsinə isinad edilməklə, həmin məcəllənin 105.3, 105.4 və 107.5-ci maddələrində tətbiqi nəzərdə tutulmuş tədbirlərin digər müvafiq tədbirlərə xas olan xüsusiyyətlərə tamlıqla malik olmadıqlarını nəzərə alaraq, məhkumun cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsinin və əfv etməyə təqdim edilməsinin həvəsləndirmə və tənbeh tədbirləri kimi qəbul olunmasını məqsədəuyğun hesab etmirik.

Yuxarıdakıları ümumiləşdirməklə, vurğulamaq istərdik ki, hazırda AR CİM-in 105-ci maddəsində nümunəvi davranışa, əməyə və təhsilə vicdanlı münasibətə, özfəaliyyət təşkilatlarında və tərbiyə tədbirlərində fəal iştiraka görə məhkumlara tətbiq edilə bilən on iki həvəsləndirmə tədbiri təsbit edilmişdir. Eyni zamanda, yalnız Tərbiyə müəssisəsində cəza çəkən məhkumlara tətbiq olunan müəssisə nümayəndəsinin müşayiəti ilə müəssisənin hüdudlarından kənarda idman, mədəni-kütləvi və digər tədbirlərə bir dəfə tamaşa etmək növündə əlavə bir həvəsləndirmə tədbirinin tətbiqi nəzərdə tutulmuşdur. Qüvvədə olan həvəsləndirmə tədbirlərini, onların məhkumlar üçün əhəmiyyətliyi və hüquqi nəticələr yaratmasından asılı olaraq, iki qrupa bölmək olar. Birinci qrup tədbirlərə bir cəzaçəkmə müəssisəsi hüdudlarında tətbiq edilən, məhkumların cəzaçəkmə şəraitinin dəyişdirilməsi ilə əlaqədar olmayan həvəsləndirmə tədbirləri aiddir. Bu tədbirlərin özü də aşağıdakı üç növə bölünür:

– mənəvi xarakterli həvəsləndirmə tədbirləri – təşəkkür elan etmək;

– maddi xarakterli həvəsləndirmə tədbirləri – hədiyyə ilə və ya pulla mükafatlandırmaq;

– rejim xarakterli həvəsləndirmə tədbirləri – əlavə telefon danışığına, görüşlərə, gəzintiyə, sovqat, bağlama, banderol almağa, qida məhsulları və ən zəruri mallar əldə etməyə icazə vermək, verilmiş tənbehi vaxtından əvvəl götürmək aiddir.

İkinci qrup həvəsləndirmə tədbirləri, müsbət xarakterizə olunan məhkumların cəzaçəkmə şəraitini əhəmiyyətli dərəcədə dəyişdirmək imkanına malikdirlər. Bu növ tədbirlərin digər həvəsləndirmə tədbirlərindən fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, onlar yalnız cəza müddətinin müəyyən hissəsini çəkmiş məhkumlara tətbiq edilir. Onlara saxlanma şəraitini yaxşılaşdırmaq, xüsusi rejimli cəzaçəkmə müəssisələrində saxlanılan məhkumları kamera tipli otaqlardan adi yaşayış binalarına keçirmək növündə həvəsləndirmə tədbirləri aiddir. Sözügedən tədbirlərin tətbiqi üçün məhkumlardan cəzaçəkmə müəssisəsinin növündən asılı olaraq, təyin edilmiş cəza müddətinin ən azı üçdə birini, yaxud yarısının çəkilməsi tələb olunur. Təhlili aparılan yeni qanunda diqqət çəkən bir məsələyə də aydınlıq gətirmək istərdik. Belə ki, AR CİM-də 1970-ci il tarixli İƏM-i ilə müqayisədə, saxlanma şəraiti həvəsləndirmə qaydasında yaxşılaşdırılmış azadlıqdan məhrum edilmiş şəxslərin əlavə qısa və uzunmüddətli görüş, həmçinin bağlama, sovqat və banderol almaq hüquqlarından istifadə sayı qismən azaldılmışdır. Lakin bu azalma həvəsləndirmə tədbirinin məzmunca sərtləşdirilməsi kimi qiymətləndirilməməlidir. Sözügedən dəyişiklik, AR CİM-də bütün məhkumlar üçün müəyyən edilmiş həmin hüquqlardan istifadənin sayca xeyli artırılması və onların daha səmərəli reallaşdırılması kontekstində qəbul edilməlidir. Eyni zamanda, AR CİM-i İƏM-dən fərqli olaraq ömürlük azadlıqdan məhrum edilmiş məhkumların da cəzanın ən azı on ili çəkildikdən sonra saxlanma şəraitinin yaxsılaşdırılması, məntəqə tipli cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumlara isə, istirahət və bayram günlərinin cəzaçəkmə müəssisəsinin ərazisindən kənarda keçirilməsinə icazə vermək kimi həvəsləndirmə tədbirinin tətbiq olunmasını da nəzərdə tutmuşdur.

AR CİM-in 107-ci maddəsinə əsasən azadlıqdan məhrum etmə cəzasını çəkən və cəzanın icrası qaydalarını pozan məhkumlara yeddi növdə, yəni xəbərdarlıq, töhmət, cərimə təcridxanasına keçirmək, müvafiq qaydaları qərəzli pozanlara isə, məntəqə tipli cəzaçəkmə müəssisəsindən kənara çıxmağın və ya üç ay ərzində istirahət və bayram günlərini müəssisədən kənarda keçirməyin qadağan edilməsi, ümumi və ciddi rejimli cəzaçəkmə müəssisələrində saxlanılan məhkumları bir aydan altı ay müddətinədək kamera tipli otaqlara, xüsusi rejimli cəzaçəkmə müəssisələrində saxlanılan məhkumları bir aydan altı ay müddətinədək birnəfərlik kameralara, həbsxanalarda saxlanılan məhkumları iki aydan altı ayadək müddətə ciddi saxlanma şəraitinə keçirmək növündə tənbeh tədbiri tətbiq edilə bilər. Daha böyük sərtliyi və müddətləri ilə xarakterizə olunan sonuncu tənbeh tədbirləri, xəbərdarlıq, töhmət, cərimə təcridxanasına keçirmək növündə tədbirlər verildikdən sonra tətbiq oluna bilər. Xüsusi rejimli cəzaçəkmə müəssisələrində saxlanılan məhkumları birnəfərlik kameralara keçirilmə növündə tənbehin tətbiqini artıq müşahidə komissiyası ilə razılaşdırmaq tələbi də aradan qaldırılmışdır. Eyni zamanda, birnəfərlik kamera tipli otaqlara keçirilmə növündə tənbehin məntəqə tipli cəzaçəkmə müəssisələrində, qadınlara, tərbiyə müəssisələrində cəza çəkən məhkumlara tətbiqinə qadağa qoyulmuşdur. Həmçinin, AR CİM-də yalnız Tərbiyə müəssisəsində cəza çəkən məhkumlara təhsili davam etdirmək şərtilə yeddi günədək müddətə intizam təcridxanasına keçirmək növündə əlavə tənbeh tədbirinin tətbiqi də təsbit olunmuşdur.

Cərimə və intizam təcridxanalarına keçirilmiş məhkumların hüquqi vəziyyətini açıqlamaqla, qeyd olunmalıdır ki, onlara görüşlərdən, telefon danışıqlarından, videogörüşlərdən istifadə etmək, qida məhsulları və zəruri mallar əldə etmək, bağlama, sovqat və ya banderol almaq qadağan edilmişdir. Lakin sonuncu İƏM-dən fərqli olaraq, AR CİM-i onların yazışma, yəni məhdudiyyətsiz sayda məktub, teleqram almaq və göndərmək hüquqlarına toxunmamışdır. Cərimə təcridxanalarına keçirilmiş məhkumların hər gün bir saatlıq gəzinti hüquqları vardır. Eyni zamanda, tənbeh tədbiri qaydasında kamera tipli otaqlara və ya birnəfərlik kameralara keçirilmiş məhkumların qida məhsulları və ən zəruri malların əldə edilməsi üçün müvafiq rejimli cəzaçəkmə müəssisəsi üçün AR CİM-lə müəyyən edilmiş məbləğdə pul xərcləmək, bir bağlama, sovqat və banderol almaq, hər gün bir saat gəzintidən istifadə etmək hüquqları vardır. Habelə, İƏM-dən fərqli olaraq sözügedən məhkumlara cəzaçəkmə müəssisəsinin müdiriyyətinin icazəsi ilə iki yox, yalnız bir qısa müddətli görüş verilə bilər.

Cərimə təcridxanalarına, камера tipli otaqlara və birnəfərlik kameralara keçirilmiş məhkumların, özünə xəsarət yetirmə və özünü xəstəliyə vurma halları istisna olmaqla, müalicə müəssisələrinə və cəzaçəkmə müəssisələrinin tibb-sanitariya hissələrinə keçirilmə vaxtı tənbehin çəkilmə müddətinə hesablanır, onların maddi-məişət təminatı həbsxanalarda ümumi saxlanma şəraitində olan məhkumlar üçün nəzərdə tutulmuş normalara uyğun müəyyən edilir. Tənbeh tədbirlərini həvəsləndirmə tədbirləri kimi, mahiyyətcə iki əsas qrupa bölmək olar. Belə bölgünün meyarı qismində tətbiq edilən tədbirlərin sərtlik dərəcəsi və onların tətbiqinin hüquqi nəticələri çıxış edir. Birinci qrupa heç bir məhdudiyyətlə müşayiət olunmayan, sərtliyi ilə nəzərə çarpmayan tənbeh tədbirləri, yəni xəbərdarlıq və töhmət daxildir. İkinci qrupa isə, sərt məzmun və ciddi məhdudiyyətlərə malik digər tənbeh tədbirləri aiddir. Bu növ tənbeh tədbirlərinə cərimə təcridxanasına, intizam təcridxanasına, kamera tipli otaqlara, birnəfərlik kameralara, həbsxanalarda ciddi saxlanma şəraitinə keçirmək, habelə məntəqə tipli cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumlara bir ay müddətində müəssisədən kənara çıxmağı və ya üç ay ərzində istirahət və bayram günlərini cəzaçəkmə müəssisəsindən kənarda keçirməyi qadağan etmək aiddir. Sözügedən həmin tədbirlərin xarakterik cəhəti ondan ibarətdir ki, onların tətbiqi nəticəsində məhkumlar bəzi əhəmiyyətli hüquqlardan müvəqqəti və ya qanunda göstərilmiş müddətə məhrum edilir,

onlar üzərinə Azərbaycan Respublikasının CİM-i ilə və cəzaçəkmə müəssisələrinin DİQ-i ilə müəyyən olunmuş əlavə vəzifələr qoyulur.

Tənbeh tədbirlərinin tətbiqi ilə əlaqədar AR CİM-də özunə yer almış daha bir yenilik xüsusi olaraq qeyd edilməlidir. Belə ki, sözügedən məcəllədə ilk dəfə əhəmiyyət kəsb edən bir məsələyə aydınlıq gətirilməklə, cəzanın icrası qaydalarının qərəzli pozulması hallarının konkret siyahısı bilavasitə qanunda öz əksini tapmışdır. Belə hallara, alkoqol və ya digər güclü təsir göstərən maddələri, yaxud narkotik vasitələri və ya psixotrop maddələri qəbul etmək, xırda xuliqanlıq törətmək, cəzaçəkmə müəssisəsinin işçi heyətini hədələmək, təhqir etmək və ya onların qanuni tələblərinə tabe olmamaq, xidməti borclarını yerinə yetirən digər dövlət nümayəndələrini hədələmək və ya təhqir etmək, qrup halında tabe olmamaq və ya belə qruplarda fəal iştirak etmək, il ərzində üç dəfədən çox tənbeh edilmək aid edilmişdir. Məntəqə tipli cəzaçəkmə müəssisələrində cəzanın icrası qaydalarının qərəzli pozulması, məhkumun cəzaçəkmə müəssisəsini icazəsiz tərk etməsi və ya onun üzrsüz səbəbdən ayda iki dəfədən çox cəzaçəkmə müəssisəsinə vaxtında qayıtmaması hesab edilir. Azadlıqdan məhrum etmə növündə cəzalara məhkum olunmuş şəxslərə həvəsləndirmə və tənbeh tədbirlərinin cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən tətbiq edilməsi ilə bağlı müddəalar AR CİM-in bir neçə, yəni 109.2, 111 və 127-ci maddələrində göstərilmişdir.

VI. Azadlıqdan məhrum edilmiş şəxslərin digər kateqoriyasına aid olan, cinayət törətməkdə təqsirləndirilərək barələrində həbs qətimkan tədbiri seçilmiş şəxslər (bundan sonra həbs edilmiş şəxslər) barəsində tətbiq edilən həvəsləndirmə və tənbeh tədbirləri ilə bağlı qeyd etmək lazımdır ki, onlar ümumən müəyyən edilmiş rejim qaydalarına riayət edilməsi və yaxud onların pozulması ilə bağlı olsalar da, azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslərlə müqayisədə növ etibarı çox az, mahiyyətcə isə, o qədər də sərt olmamışlar. Həbs edilmiş şəxslərlə bağlı nəzərdən keçirilən müvafiq dövr ərzində mövcud qanunvericiliklə əlaqədar vurğulanmalıdır ki, XX əsrin altmışıncı illərinin sonuna kimi sözügedən şəxslərin ilkin həbs yerlərində saxlanılması ilə əlaqədar ayrıca qanunvericilik aktı qəbul edilmədiyindən müvafiq məsələlər, o cümlədən tənbeh tədbirlərinin tətbiqi, yuxarıda qeyd olunduğu ASSR İƏM-ə uyğun həyata keçirilirdi.

Eyni zamanda, həbs edilmiş şəxslərin hüquqi statusu və onların həbs yerlərində saxlanması ilə əlaqədar bir sıra məsələlər Azərbaycan SSR-nin 1923-cü və 1960-cı illərdə qəbul edilmiş CPM-lərin müvafiq maddələri ilə də tənzimlənirdi. Lakin, qeyd olunan məcəllələrdə həbs edilmiş şəxslərə tətbiq edilən həvəsləndirmə və təhbeh tədbirləri, onların tətbiqi ilə əlaqədar normalar nəzərdə tutulmamışdı.

VII. Sabiq SSRİ-nin 11 iyul 1969-cu il tarixli Qanunu ilə təsdiq edilmiş "İlkin həbs yerlərində saxlanılma barədə Əsasnamə"ni (bundan sonra Həbs haqqında Əsasnamə) həbs edilmiş şəxslərin hüququ vəziyyətini və onların müvafiq yerlərdə saxlanılması ilə bağlı hüquqi münasibətləri tənzimləyən ilk xüsusi qanunvericilik aktı kimi xarakterizə etmək olar. Eyni zamanda, Həbs haqqında Əsasnamənin müddəaları ümumi xarakter daşımış, həbslə əlaqədar xüsusi qanunun qəbulu üçün əsas yaratmışdı. Lakin əfsuslar olsun ki, istər SSRİ-də, istərsə sabiq müttəfiq respublikalarda, o cümlədən Azərbaycan SSR-də, sözügedən qanunlar qəbul edilməmişdi. Həbs haqqında Əsasnamədə əksini tapmış əhəmiyyətli məsələlərdən biri də həbs edilmiş şəxslərə həvəsləndirmə və tənbeh tədbirlərinin tətbiqi idi. Belə ki, həbs edilmiş şəxslərə nümunəvi davranışa görə aşağıdakı həvəsləndirmə tədbirləri tətbiq oluna bilərdi:

– təşəkkür elan etmək;

– əvvəllər verilmiş tənbehi vaxtından əvvəl götürmək;

– gəzinti müddətini artırmaq.

Həbs edilmiş şəxslərə, rejim qaydalarının pozulmasına görə aşagıda göstərilən həvəsləndirmə tədbirləri tətbiq edilə bilərdi:

– xəbərdarlıq və ya töhmət;

– kameranın növbədənkənar yığışdırılması üzrə növbətçilik;

– bir ay ərzində ərzaq məhsulları əldə edilməsi, növbəti sovqat və bağlama almaq hüququndan məhrum etmə.

Eyni zamanda, rejim qaydalarının qərəzli pozulmasına görə həbs edilmiş şəxslər on günədək karserə (cərimə təcridxanasına) yerləşdirilə bilərdilər. Yetkinlik yaşına çatmayanlara güzəştli yanaşma nümayiş etdirilməklə, onlar barədə karserə yerləşdirmək növündə təhbeh beş günədək tətbiq oluna bilərdi. Lakin hamilə, yanında uşaqlarını saxlayan qadınların karserə yerləşdirilməsi qadagan edilmişdi. Həbs haqqında Əsasnamənin müddəalarına uyğun olaraq həbsdə saxlanılan şəxslərə tətbiq edilən təhbeh tədbirləri, yol verilmiş xətanın ağırlığına və xarakterinə uyğun olmalı idi. Habelə, həbsdə olan şəxslərə fiziki əzab verə bilən və ya insan ləyaqətini alçalmaq məqsədi daşıyan tədbirlərin tətbiqi qadağan olunmuşdu. Həbs haqqında Əsasnaməyə əsasən, həbs edilmiş şəxslərə həvəsləndirmə və tənbeh tədbirləri həbs yerlərinin müdiriyyəti tərəfindən tətbiq oluna bilərdi. Eyni zamanda, karserə (yəni cərimə təcridxanasına) yerləşdirmə növündə tənbehin tətbiqi və icra qaydaları, orada saxlanma şəraiti, bu zaman həbs edilmiş şəxslərin hüquqları ilə bağlı müddəalar Həbs haqqında Əsasnaməyə daxil edilməmişdi, onlar sabiq müttəfiq respublikalarda qəbul ediləcək müvafiq qanunlarla nizama salınmalı idi.

VIII. Azərbaycan Respublikasında yeni Konstitusiyanın qəbulundən sonra həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı 14 iyul 2000-ci il tarixdə yeni, müasir AR CPM-i qəbul edilmişdir. Sözügedən Məcəllənin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimlənmə ilə haqqında Azərbaycan Respublikasının eyni tarixli qanununa uyğun olaraq həbsdə saxlanılmaya dair yeni qanun qəbul edilənədək, müvafiq məsələlər 2000-ci ilin 1 sentyabrınadək qüvvədə olmuş AR CPM-in 433-443-cü maddələrinə uyğunlaşdırılmış qaydada Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən qəbul edilmiş Müvəqqəti Əsasnaməyə əsasən həyata keçirilməli idi. Sözügedən

Müvəqqəti Əsasnamə Ədliyyə Nazirliyinin 07 dekabr 2002-ci il tarixli əmri ilə təsdiq edilmiş və dövlət qeydiyyatına alınmışdı. Müvəqqəti Əsasnamə digər məsələlərlə yanaşı həbs edilmiş şəxslərə həvəsləndirmə və tənbeh tədbirlərinin tətbiqini də qısa şəkildə tənzimləmişdi. Belə ki, həbs edilmiş şəxslərə nümunəvi davranışa görə iki, yəni təşəkkür elan etmək və əvvəllər verilmiş tənbehi vaxtından əvvəl götürmək növündə həvəsləndirmə tədbiri tətbiq edilə bilərdi. Həbs edilmiş şəxslər tərəfindən rejimin tələblərinin pozulmasına görə isə, xəbərdarlıq və ya töhmət, kameranı təmizləmək üçün növbədənkənar növbətçilik növündə tənbeh tədbirlərinin tətbiqi nəzərdə tutulmuşdu. Lakin Həbs haqqında Əsasnamədə öz əksini tapmış bir ay ərzində ərzaq məhsulları əldə edilməsi, növbəti sovqat və bağlama almaq hüququndan məhrum etmə növündə tənbeh tədbiri Müvəqqəti Əsasnaməyə daxil edilməmişdi. Habelə, Həbs haqqında Əsasnamədə olduğu kimi, rejim tələblərinin qərəzli pozulmasına görə həbs edilmiş şəxslərə on sutkayadək cərimə təcridxanasına, yetkinlik yaşına çatmayanlara isə, beş sutkayadək intizam təcridxanasına yerləşdirmək növündə təhbeh tədbiri tətbiq oluna bilərdi. Hamilə, yanında uşağı olan qadınlara cərimə təcridxanasına yerləşdirilmə növündə tənbehin tətbiqi qadagan edilmişdi**.** Eyni zamanda, cərimə təcridxanasına yerləşdirmə növündə tənbehin tətbiqi və icrası qaydaları, orada saxlanılma şəraiti, bu zaman həbs edilmiş şəxslərin hüquqları ilə bağlı müddəalar Müvəqqəti Əsasnamə ilə tənzimlənməmiş qalmışdı.

IX. 22 may 2012-ci il tarixdə tutulmuş və barələrində həbs qətimkan tədbiri seçilmiş şəxslərin həbs yerlərində saxlanılması qaydalarını tənzimləyən Azərbaycan Respublikasının yeni, müasir "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Qanunu qəbul edilmiş, qanun həmin ilin iyul ayının 6-da qüvvəyə mindikdən sonra Müvəqqəti Əsasnamə qüvvədən düşmüşdür. Cinayət mühakiməsinin maraqları nəzərə alınmaqla, AR CPM-ə əsaslanaraq Müvəqqəti Əsasnamənin bir sıra müddalarını, həbslə bağlı tədbirlərə məruz qalmış şəxslərlə rəftara həsr edilmiş beynəlxalq aktların tələblərini nəzərə almaqla, tutulmuş və barələrində həbs qətimkan tədbiri seçilmiş şəxslərin saxlanılması ilə bağlı məsələləri hərtərəfli tənzimləyən qanun, sözügedən şəxslərin hüquqi vəziyyətini, onların saxlanma şəraitini əhəmiyyətli dərəcədə humanistləşdirmişdir [12, c. 84–86]. Eyni zamanda, Müvəqqəti Əsasnamədən fərqli olaraq sözügedən şəxslərə həvəsləndirmə, xüsusilə tənbeh tədbirlərinin tətbiqi ilə bağlı hüquqi munasibətlər ətraflı şəkildə nizama salınmışdır. İlk növbədə qeyd edilməlidir ki, sözügedən qanunda həbs yerlərində rejimin təmin edilməsini nizamlayan üçüncü fəsildə həvəsləndirmə və tənbeh tədbirlərinə üç, yəni 38-40-ci maddələr həsr edilmişdir. Həmin maddələr həbs yerlərində saxlanılan şəxslərə tətbiq edilən həvəsləndirmə, tənbeh tədbirlərinin siyahısını, tətbiqi əsaslarını, qaydasını, habelə sabiq qanunvericilik aktlarından fərqli olaraq, cərimə təcridxanasında yerləşdirmə növündə tənbehin tətbiqi qaydasını və həmin yerlərdə saxlanılma şəraitinin xüsusiyyətlərini ətraflı şəkildə açıqlamışdır. Yeni qanun Müvəqqəti Əsasnamədə nəzərdə tutulmuş həvəsləndirmə və təhbeh tədbirlərinin növlərini olduğu kimi saxlasa da, cərimə təcridxanasına yerləşdirmə tədbirinin müddətini üç gün azaltmaqla, yeddi gün müəyyən etmişdir. Habelə, tənbeh tədbirlərinin tətbiqi əsasını dəyişdirilərək, onu istintaq təcridxanalarının Daxili İntizam Qaydalarının (bundan sonra DİQ) pozulması ilə əvəz etmişdir. Eyni zamanda, cərimə təcridxanasına yerləşdirilməsinə məhdudiyyət qoyulmuş şəxslərin dairəsi genişləndirilərək, hamilə, yanında üç yaşınadək uşağını saxlayan qadınlardan əlavə, yetkinlik yaşına çatmayanlar da müvafiq siyahıya əlavə edilmişlər. Sözügedən qanun cərimə təcridxanasında yerləşdirilməni müstəsna tədbir hesab etməklə, onun tətbiqinə əsas yaradan konkret beş pozuntu növünü də müəyyənləşdirmişdir. Belə ki, cərimə təcridxanasında yerləşdirmə növündə tənbeh yalnız barələrində bir il ərzində azı iki dəfə xəbərdarlıq və ya töhmət tətbiq edilmiş, yenidən DİQ-i pozmuş, xırda xuliqanlıq əməli törətmiş, həbs yerinin işçilərinin qanuni tələblərinə tabe olmayan və ya onları, habelə xidməti vəzifələrini yerinə yetirən digər şəxsləri, yaxud həbs edilmiş şəxsləri hədələyən həbs edilmiş şəxslərə tətbiq edilə bilər. Qanuna əsasən, cərimə təcridxanasında yerləşdirilən həbs edilmiş şəxslər fərdi çarpayı və yataq ləvazimatı ilə təmin olunurlar, lakin onlara təyin edilmiş tənbeh müddətində ərzaq məhsulları əldə etmək, bağlama, sovqat və banderol almaq, stolüstü oyunlardan istifadə və televiziya proqramlarına tamaşa etmək qadağan olunmuşdur. Eyni zamanda, həmin şəxslərin görüş və ya yazışma hüquqları müəyyən şərtlə saxlanılmışdır. Qeyd olunan hüquqlar yalnız bir müstəsna halda, yəni cərimə təcridxanasına yerləşdirilməyə əsas verən hüquq pozuntusu, biavasitə görüş və ya yazışma ilə bağlı olduqda qadağan edilə bilər. Cərimə təcridxanasında yerləşdirilən şəxslərin hər gün ən azı bir saat gəzinti hüquqları vardır, onlar tənbehin icra edildiyi yerə yerləşdirildikdən dərhal sonra və təyin edilmiş müddət ərzində hər gün ən azı bir dəfə tibb işçisi tərəfindən yoxlanılmalı və zəruri hallarda, tibbi yardımla təmin olunmalıdırlar. Həmin şəxslərin səhhəti ilə əlaqədar cərimə təcridxanasında saxlanılmasının qeyri-mümkün olması barədə tibbi rəy olduqda, onlar tənbehi çəkməkdən azad edilirlər. Tənbeh tədbirləri verilməzdən əvvəl həbs edilmiş şəxsdən izahat alınır, əgər şəxs izahat verməkdən imtina edərsə, bu barədə imtinanın səbəbləri göstərilməklə akt tərtib edilir. Tənbeh tədbiri pozuntunun aşkar edildiyi gündən ən geci beş gün keçənədək, pozuntu ilə əlaqədar yoxlama aparıldıqda isə, yoxlama başa çatdıqda, lakin pozuntu törədildiyi gündən ən geci bir ay keçənədək tətbiq edilir. Tənbeh tədbirləri həbs yerlərində müəyyən edilmiş qaydaların pozulması halları və həbs edilmiş şəxsin davranışı nəzərə alınmaqla, istintaq təcridxanasının rəisinin və ya onu əvəz edən şəxsin əsaslandırılmış qərarı ilə tətbiq edilir. Qərarın surəti həbs edilmiş şəxsə dərhal təqdim edilir, ona şikayət etmək hüququ izah olunur və müvafiq qeydiyyat aparılır. Bir pozuntuya görə yalnız bir tənbeh tədbiri tətbiq edillə bilər. Qanunda DİQ-in pozulmasında təqsirləndirilən həbs edilmiş şəxsin hüquqları da təsbit edilmiş və onlar aşağıdaklardır:

– hansı əməlinin DİQ-in pozulması hesab olunduğu barədə dərhal məlumat almaq;

– özünün müdafiəsi üçün kifayət qədər vaxta və şəraitə malik olmaq;

– tərcüməçinin köməyindən pulsuz istifadə etmək;

– şahidlərin izahatının alınmasını tələb etmək və onların izahatının alınmasında iştirak etmək.

Əlavə olaraq, həbs edilmiş şəxs tənbeh tədbirindən yuxarı vəzifəli şəxsə və ya məhkəməyə şikayət də verə bilər. Qanunun 39.8-ci maddəsinə əsasən tənbeh tədbirinin tətbiqinin dayandırılması barədə qərar qəbul edildiyi hallar istisna olmaqla, şikayətin verilməsi tənbeh tədbirinin tətbiqini dayandırmır. Şikayət verildiyi hallarda, barəsində şikayət olunan tənbeh tədbirinin tətbiqinin dayandırılması ilə bağlı məsələyə, maraqlı şəxsin ərizəsinə əsasən və ya xidməti vəzifəsinə görə şikayət instansiyasının öz təşəbbüsü ilə, şikayət instansiyası tərəfindən dərhal baxılır və bu barədə müvafiq qərar qəbul edilir. Həbs yerlərinin cərimə təcridxanalarındakı kameraların quruluşu, yəni oradakı saxlanma şəraiti istintaq təcridxanalarının DİQ-i ilə müəyyən edilmişdir.

Azadlıqdan məhrum edilmiş şəxslərə tətbiq edilən həvəsləndirmə və tənbeh tədbirlərinin tətbiqi ilə bağlı Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, habelə Ədliyyə Nazirliyi tərəfindən rəsmi statistik məlumatlar dərc edilməsə də, cəza-icra sistemində uzun müddətli fəaliyyətlə bağlı təcrübəmizə istinadən qeyd edə bilərik ki, həvəsləndirmə tədbirləri arasında daha çox təşəkkür elan edilməsi, cəzaçəkmə müəssisələrində əlavə uzun müddətli görüşə icazə verilməsi, tənbehlər arasında isə, töhmət və cərimə təcridxanasına keçirilmə növündə tədbirlərdən daha çox istifadə edilir.

Yuxarıda göstərilənlərə əlaqədar qeyd etmək istərdik ki, yüz ildən artıq müddətdə mövcud olmuş qanunvericilik aktlarının təhlili göstərdi ki, Azərbaycanda azadlıqdan məhrum edilmiş şəxslərə tətbiq edilən həvəsləndirmə və tənbeh tədbirlərinin siyahısı, onların tətbiqi əsasları, qaydaları müvafiq qanunvericiliyin inkişafı və təkmilləşdirilməsi çərçivəsində ardıcıl olaraq xeyli dəyişikliklərə və yeniləşmələrə məruz qalmışdır. Belə ki:

– ilkin tənbeh, sonradan həvəsləndirmə tədbirləri həyata vəsiqə almış, zaman keçdikcə onların növləri dəyişmiş və sayları artmışdır;

– tətbiq etmə əsasları dəyişmiş, həvəsləndirmə tədbirləri ilə əlaqədar əsaslar isə, bir qədər genişləndirilmişdir;

– həvəsləndirmə və tənbeh tədbirlərini tətbiq etmə səlahiyyətinə malik qurum və vəzifəli şəxslərin dairəsi dəyişmiş, müvafiq səlahiyyətli xüsusi qurumlar ləğv olunmuş, digər orqan və strukturlarla razılaşdırılma proseduru aradan qaldırılmış, həmin müstəsna hüquqlar yalnız həbs qətimkan tədbirini və azadlıqdan məhrum etmə növündə cəzanı icra edən müəssisələrin rəisləri və ya onları əvəz edən şəxslərə aid edilmişdir;

– humanizm prinsipləri əsas götürülməklə, insan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı beynəlxalq aktların tövsiyələrinə istinadən fiziki təsir göstərilməsi ilə müşayiət edilən, əzab və işgəncə xarakterli, insan ləyaqətini alçaldan tənbehlərdən tamlıqla imtina olunmuş, əhəmiyyətli hüquqlardan, xüsusilə əlaqə hüquqlarından məhrum etmə, gündəlik qidalanmanın məhdudlaşdırılması və ya onun normasının azaldılması ilə bağlı tənbeh tədbirləri ləğv edilmişdir;

– yol verilmiş pozuntuların araşdırılması proseduru təkmilləşdirilmiş, həmin prosesdə məhkumun özünü müdafiə etmə hüququnun dairəsi genişləndirilərək, ona öz əməlini yazılı və ya şifahi qaydada izah etmək, tərcüməçinin, habelə vəkilin köməyindən istifadə etmək imkanları verilmişdir;

– il ərzində eyni həvəsləndirmə tədbirlərinin təkrar tətbiqi imkanı, yəni onların sayı ilə bağlı mövcud olmuş məhdudiyyətlər aradan qaldırılmışdır;

– tənbeh tədbirlərinin tətbiq qaydaları, onların icra mexanizmləri təkmilləşdirilmiş, azadlıqdan məhrum edilmişlərin barələrində qəbul edilmiş qərarlara rəy bildirmək, habelə şikayət vermək hüquqları qanunda təsbit edilmişdir;

– qərəzli hesab edilən pozuntuların dəqiq siyahısı qanunda öz əksini tapmışdır;

– xüsusi qayğıya ehtiyacı olan şəxslər, yəni yetkinlik yaşına çatmayan, qadın, habelə hamilə və yanında azyaşlı uşağı olan qadınlarla əlaqədar, yalnız onlar barədə tətbiq edilən xüsusi həvəsləndirmə tədbirləri nəzərdə tutulmuş, sözügedən şəxslərə bir sıra tənbeh tədbirlərinin tətbiqinə qadağa qoyulmuş, yaxud onların tətbiq müddəti azaldılmışdır;

– əlaqə, ünsiyyət imkanları təqdim edən həvəsləndirmə tədbirlərinin dairəsi genişləndirilmişdir;

– həvəsləndirmə və tənbeh tədbirlərinin elan edilmə qaydası dəyişmiş, hazırda onlar yalnız yazılı şəkildə həyata keçirilir;

– hərəkət azadlığının məhdudlaşdırılması ilə müşayiət olunan bəzi sərt tənbeh tədbirlərinin müddəti azaldılmış, onların icrası ilə bağlı saxlanılma şəraiti humanistləşdirilmiş, bu zaman müvafiq şəxslərin hüquqları ətraflı nizamlanmışdır;

– qanunla bir sıra sərt tənbeh tədbirlərin il ərzində maksimal tətbiq etmə müddətləri müəyyən olunmuşdur;

– tənbeh tədbirinin tətbiqi zamanı xətanın törədilmə şəraiti, azadlıqdan məhrum edilmişin şəxsiyyəti, saxlanma və ya cəzanın çəkilməsi müddətindəki davranışının nəzərə alınması təsbit edilmişdir;

– sui-istifadələrə yol verilməməsi məqsədilə, həvəsləndirmə qaydasında tənbeh tədbirlərinin vaxtından əvvəl götürülməsi ilə bağlı qanunvericilikdə minimal müddətlər müəyyən olunmuşdur.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycanda istər SSRİ dönəmində, istərsə müstəqilliyin bərpasından sonrakı dövrdə azadlıqdan məhrum edilmiş şəxslərə tətbiq edilən həvəsləndirmə və tənbeh tədbirlərinin, sözügedən sabiq ittifaqa daxil olmuş respublikalarda, sonralar həmin müstəqil dövlətlərin müvafiq qanunvericiliyinə daxil edilmiş tədbirlərlə oxşarlığı olmuş və hazırda da vardır. Lakin hazırda onlar, xüsusilə daha ciddi tənbeh tədbirləri sözügedən bir sıra həmin respublikalarla müqayisədə daha humanist məzmuna malikdir. Belə ki, Gürcüstanın, Özbəkistanın, Tacikistanın, Qırğızıstanın cəzaların icrası məcəllələrində məhkumları bir sıra vacib, yəni görüş, telefon danışıqları, sovqat, bağlama, banderol

almaq, ərzaq məhsulları və ən zəruri mallar əldə etmək hüquqlardan məhrum etmə növlərində tənbeh tədbirləri hələ də mövcuddur. Yuxarıda göstərildiyi kimi Azərbaycan Respublikasında sözügedən tənbeh tədbirləri 1997-ci ilin fevral ayında ləğv edilmiş və sonradan AR CİM-ə də daxil edilməmişdir. Göstərilənlər həbs edilmiş şəxslərə tətbiq edilə bilən ən sərt tənbeh tədbirinə, yəni cərimə təcridxanasına keçirilməyə də aiddir. Rusiya Federasiyasının, Qazaxıstanın, Belarus Respublikasının həbslə bağlı qanunlarında cərimə təcridxanasına yerləşdirmə növündə tədbirin tətbiq müddəti on beş günədək müəyyən olunmuşdur ki, bu da Azərbaycan Respublikasının müvafiq qanununda nəzərdə tutulmuş müddətdən iki dəfə çoxdur. Eyni zamanda, sözügedən qanunvericilik aktları ilə Rusiya Federasiyasında, Belarus Respublikasında, Qazaxıstanda, Özbəkistanda, Qırğızıstanda, Ermənistanda həbs edilmiş yetkinlik yaşına çatmayan şəxslərin intizam təcridxanasına keçirilməsi növündə tənbeh tədbir nəzərdə tutulduğu halda, Azərbaycan Respublikasında sözügedən şəxslərə müvafiq tənbehin tətbiqi qadağan edilmişdir.

Aparılmış təhlillərin nəticələrinə əsaslanaraq qeyd etmək lazımdır ki, hazırda Azərbaycan Respublikasında azadlıqdan məhrum edilmiş şəxslərə tətbiq edilməsi nəzərdə tutulan həvəsləndirmə və tənbeh tədbirləri, onların tətbiqi prosedurları insan hüquq və azadlıqlarının müdafiəsinə dair beynəlxalq aktların, sözügedən şəxslərlə davranışa həsr edilmiş beynəlxalq standartların tələblərinə ümumən cavab verməklə, qarşılarına qoyulmuş vəzifələri uğurla yerinə yetirmək potensialına malikdirlər. AR CİM-i, həbslə bağlı qanun qüvvəyə mindikdən sonra ölkənin həbs yerləri, cəzaçəkmə müəssisələri tərəfindən sözügedən tədbirlərin tətbiqi ilə əlaqədar müəyyən müsbət təcrübə də formalaşmışdır. Eyni zamanda, təcrübədə, habelə ölkə mediayasında müvafiq tədbirlərin, xüsusilə tənbehlərin tətbiqi ilə bağlı şikayətlərin verilməsi və məhkəmələrə müraciət edilməsi barədə məlumatlara demək olar ki, rast gəlinməməsi, eləcə də müvafiq tədbirlərlə əlaqədar məhkumların cəzaçəkmə müəssisələrinin normal fəaliyyətinin pozulmasına yönəlmiş hərəkətlərinin qeydə alınmaması halları, sözügedən sahədəki fəaliyyəti, ümumilikdə, müsbət qiymətləndirməyə əsas verir. Eyni zamanda, Azərbaycan Respublikasında həyata keçirilən cəza-icra siyasətinin əsas istiqamətlərini, həbs edilmiş şəxslər və məhkumlarla davranışa həsr edilmiş beynəlxalq standartların ardıcıllıqla milli qanunvericiliyə daxil edilməsi təcrübəsini nəzərə alaraq, azadlıqdan məhrum edilmişlərə, onlar arasında xüsusi qayğıya ehtiyacı olan, habelə saglamlıq imkanları məhdud şəxslərə tətbiq edilən həvəsləndirmə tədbirlərinin sayının artırılmasını, onların tətbiqi dairəsinin genişləndirilməsini, habelə bəzi tənbeh tədbirlərinin məzmununun dəyişdirilməsini və icrası qaydalarının bir qədər humanistləşdirilməsini məqsədəuyğun hesab edirik. Habelə, AR CİM-də nəzərdə tutulmuş həvəsləndirmə və təhbeh tədbirlərini, onların tətbiqi qaydaları tənzimləyən hüquq normalarının sistemləşdirilməsini, bir sıra maddələrdə müşahidə edilən təkrarçılığın aradan qaldırılmasını da vacib sayırıq. Bu məqsədlə aşagıdakı təkliflər nəzərdən keçirilməsi üçün təqdim edilir.

1. Hamilə, yanında üç yaşınadək uşaqlarını saxlayan, habelə yetkinlik yaşına catmayan övladları sosial müəssisələrdə olan məhkum qadınlar, habelə əlilliyi olan məhkumlarla əlaqədar:

1) ***Hamilə və cəzaçəkmə müəssisələrinin uşaq evlərində uşaqları olan məhkum qadınların həbsxanaya keçirilməsinə qadağa qoymaq və ya müvafiq müddətin yuxarı həddini üç ayadək müəyyən etmək.***

Belə yanaşma, müvafiq qadınların saglamlığı və onların övladlarının maraqlarının təmin edilməsi baxımından daha məqsədəuyğun olardı [13, p. 56].

2) ***Məntəqə tipli cəzaçəkmə müəssisələrində hamilə və yanında uşaqlarını saxlayan, habelə cəzaçəkmə müəssisələrindəki uşaq evlərində uşaqları ilə birlikdə saxlanılan məhkum qadınlara uşaqları ilə birlikdə ayda bir dəfədən az olmayaraq gün ərzində müəssisənin hüdudlarından kənarda gəzintiyə çıxmağa icazə verilməsi növündə yeni həvəsləndirmə tədbirini müəyyən etmək.***

Sözügedən tədbir, cəzaçəkmə müəssisələrində uşaqların normal inkişafına yönəlməklə, ana və uşaq arasındakı emosional əlaqələrin qorunmasına, uşaqların hüquqlarını daha etibarlı təmin edilməsinə zəmin yarada bilərdi.

3) ***Hamilə, cəzaçəkmə müəssisələrinin uşaq evlərində uşaqları olan məhkum qadınların, habelə orqanizmin funksiyalarının 81-100 faizədək pozulması müəyyən edilmiş şəxslərin tənbeh qaydasında cərimə və intizam təcridxanalarına keçirilməsini qadağan etmək***.

Belə ki, Azərbaycan Respublikasının qüvvədən düşmüş 1970-ci il tarixli İƏM-in 67-ci maddəsində müvafiq humanist norma var idi, yəni hamilə, cəzaçəkmə müəssisələrinin uşaq evlərində uşaqları olan məhkum qadınların, həmçinin birinci qrup əlillərin cərimə təcridxanasına, kamera tipli otaqlara, həbsxanada ciddi rejimə keçirilməsi nəzərdə tutulmamışdı. Habelə, hazırda Rusiya Federasiyası, Belarus Respublikası, Ukrayna, Qazaxıstan, Gürcüstan, Özbəkistan, Moldova, Tacikistan, Qırğızıstan, Türkmənistan kimi dövlətlərinin cəzaların icrasını tənzimləyən qanunvericiliklərində də sözügedən məhkum qadınların cərimə təcridxanasına keçirilməsinə qadağa qoyulmuşdur. Habelə, məhbuslarla davranışa həsr olunmuş beynəlxalq aktlar da, müvafiq məhkum qadınların, habelə digər şəxslərin qayğısına ehtiyacı olan əlillərin cərimə təcridxanasına keçirilməsindən imtina olunmasını tövsiyə edirlər [13, p. 57];

4) ***Məhkum qadınlara dövlət sosial müəssisələrində, yəni körpələr və uşaq evlərində, internatlarda saxlanılan yetkinlik yaşına çatmayan uşaqlarına baş çəkmək üçün cəzaçəkmə müəssisəsinin əməkdaşlarının müşayiəti ilə gün ərzində müəssisənin hüdudlarından kənara çıxmaga icazə vermək növündə yeni həvəsləndirmə tədbiri müəyyən etmək.***

Bu tədbir məhkum qadınların uşaqları ilə ünsiyyətlərinin saxlanmasına və ailə əlaqələrinin

möhkəmlənməsinə əhəmiyyətli dərəcədə dəstək ola bilərdi [14, c. 637–638].

2. Yetkinlik yaşına çatmayan məhkumlarla əlaqədar:

1) ***Tərbiyə müəssisələrində məhkumlara istirahət və ya bayram günlərində valideynlərinin və ya onları əvəz edən şəxslərin müşayiəti ilə gün ərzində müəssisənin hüdudlarından kənara çıxmaga icazə vermək növündə yeni həvəsləndirmə tədbirini nəzərdə tutmaq.***

Sözügedən imkan yetkinlik yaşına çatmayan məhkumların ailə əlaqlərinin möhkəmlənməsinə, onların gələcəkdə azadlıq şəraitinə daha asan uyğunlaşmasına kömək edə bilərdi [15, p. 68].

2) ***İntizam təcridxanasına keçirmək növündə tənbeh tədbirinin müddətini yeddi gündən üç günədək azaltmaq, onun icrası müddətində məhkumların telefon danışıqlarına və videogörüşlərə qoyulmuş qadağanları ləğv etmək.***

İntizam təcridxanasında saxlanılma dövründə valideynlərlə, yaxud qohumlarla birbaşa ünsiyyət imkanının verilməsi, ilk növbədə həmin şəxslər tərəfindən məhkuma tərbiyəvi təsir göstərilməsi, onların yeni pozuntulardan çəkindirilməsi baxımından kifayət qədər səmərəli ola bilərdi. Eyni zamanda, müvafiq təmasların mümkünlüyü, təhbeh tədbirinin icrası müddətində sözügedən məhkumların yol verilə biləcək sui-istifadələrdən müdafiəsi baxımından da böyük əhəmiyyət kəsb edərdi [16, p. 31].

3. Azadlıqdan məhrum edilmiş bütun şəxslərə münasibətdə:

1) ***"Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Qanunun 39.2-ci maddəsində tənbeh tədbirinin tətbiqi ilə əlaqədar qərarın surətinin həbs edilmiş şəxsə dərhal təqdim edilməsi və həmin qərardan şikayət etmək hüququnun ona izah olunması ilə bağlı normanı məhkumlara da şamil etmək.***

Təklif olunan yenilik sözügedən şəxslərin hüquqlarının daha səmərəli müdafiəsi baxımından əhəmiyyətli olduğu üçün məqsədəuyğun hesab edilir.

2) ***AR CİM-in 110 və 126-cı maddələrində nəzərdə tutulmuş tənbeh tədbiri kimi cərimə və ya intizam təcridxanalarında, kamera tipli otaqlarda, birnəfərlik kameralarda saxlanılan məhkumların telefon danışıqlarına qoyulmuş məhdudiyyəti ləğv etmək.***

Humanizm prinsiplərini və beynəlxalq standartları rəhbər tutaraq, yaxın qohumlarla ünsiyyətin məhkuma müsbət təsir göstərə biləcəyini nəzərə alaraq, qanunda nəzərdə tutulan müvafiq əlaqə növünün qadağan edilməsini tam düzgün hesab etmirik [15, p. 67].

3) ***Cəzaçəkmə müəssisəsinin hüdudlarından kənarda idman, mədəni-kütləvi və digər tədbirlərə bir dəfə tamaşa məqsədilə təqdim olunan həvəsləndirmə tədbirinin, ehtiyatsızlıqdan törədilmiş, qəsdən törədilmiş böyük ictimai təhlükə törətməyən, az ağır cinayətlərə görə məhkum olunmuş və ümumi rejimli cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumlara da tətbiq etmək.***

Müvafiq tədbir, sözügedən kateqoriyalı məhkumları rejim qaydalarına dönmədən riayət etməyə daha geniş təşviq etməklə yanaşı, onların azad edildikdən sonra sosial adaptasiyasının qısa müddətdə və daha səmərəli keçməsini şərtləndirə bilərdi.

4) ***Beynəlxalq aktlar, o cümlədən Avropa Şurasının Nazirlər Komitəsinin 24 sentyabr 1982-ci il tarixli (82) 16 nömrəli Tövsiyəsi, habelə bir sıra Avropa ölkələrində tətbiq olunduğu nəzərə alınaraq, məhkumlara ailə və sosial yönümlü, yəni tibbi müayinədən keçmək, müalicə almaq, hüquqlarının məhkəmədə müdafiəsi üçün, habelə ailə üzvlərinin, azad edilməkdən bir müddət əvvəl özlərinin əhəmiyyət kəsb edən problemlərinin həllində bilavasitə iştirakı ilə əlaqədar qısa müddətli məzuniyyətlər təqdim edilməsi ilə bağlı yeni həvəsləndirmə tədbirini müvafiq siyahıya əlavə etmək.***

Sözügedən tədbir məhkumları özlərinin, ailə üzvlərinin problemlərin həllinə cəlb etməklə, onların məsuliyyətinin artmasına, ailə əlaqələrinin möhkəmlənməsinə, gələcək həyatlarının əvvəlcədən planlaşdırılmasına, habelə azad cəmiyyətə qısa müddətdə reinteqrasiyasına dəstək ola bilərdi.

5) ***Naxçıvan Muxtar Respublikasında (bundan sonra Naxçıvan MR) da Ədliyyə nazirliyinin, habelə onun nəzdində Penitensiar xidmətin fəaliyyət göstərdiyi nəzərə alınaraq, AR CİM-in 109.2-ci maddəsində nəzərdə tutulmuş məhkumların tənbeh tədbirindən sikayət verilməsi ilə bağlı Cəzaçəkmə müəssisələrinin DİQ-in 285-ci bəndində göstərilmiş şəxslərin dairəsinə, yəni Azərbaycan Respublikasının ədliyyə naziri, nazir müavini-Penitensiar xidmətin rəisindən əlavə, Naxçıvan MR-in ədliyyə nazirini, onun müavini-Penitensiar xidmətin rəisini də əlavə etmək.***

Təklif eyni funksiyaları yerinə yetirən dövlət orqanları arasında müvafiq səlahiyyətlərin optimallaşdırılması, səmərəli idarəetmənin təmini və müvafiq hüququn daha ədalətli bölüşdürülməsi zərurətindən irəli gəlir**.**

4. Həbsdə saxlanılma yerləri ilə bağlı:

1) ***AR CİM-in 105.1-ci maddəsinə əsasən məhkumlara təqdim olunduğunu diqqətə alaraq, həbs edilmiş şəxslərə də, yaxın qohumları ilə əlavə telefon danışığına icazə vermək növündə yeni həvəsləndirmə tədbirinin tətbiqini nəzərdə tutmaq.***

Müvafiq tədbir həbs edilmiş şəxslərin yaxınları ilə əlaqələrinin daha da möhkəmlənməsinə, bir çox hallarda cəmiyyətdən təcrid edilmə ilə bağlı yaranan psixoloji gərginliyin və depressiv halların aradan götürülməsinə köməklik göstərə bilərdi.

2) ***Orqanizmin funksiyalarının 81-100 faizədək pozulması müəyyən edilmiş həbs edilmiş şəxslərin tənbeh qaydasında cərimə və intizam təcridxanalarına keçirilməsini qadağan etmək.***

Təklif edilən dəyişiklik milli qanunvericilikdə və beynəlxalq aktlarda nəzərdə tutulmuş, müvafiq əlillik qrupuna daxil edilmiş şəxslərin hüquq və azadlıqlarının daha səmərəli müdafiəsinin təmin edilməsinə yönəlmişdir.

3) ***"Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Qanunun 39.7-ci maddəsində həbs edilmiş şəxslərə tətbiq olunmuş tənbeh tədbirindən sikayət verilməsi göstərilmiş yuxarı vəzifəli şəxsin kimliyinə tamlıqla aydınlıq gətirilməsi və cərimə təcridxanası otaqlarının***

təchizatı ilə bağlı məsələnin tənzimlənməsi məqsədilə İstintaq təcridxanalarının DİQ-inə əlavələr etmək.

Fikrimizcə, yuxarı vəzifəli şəxslərə Ədliyyə nazirliyinin istintaq təcridxanalarına münasibətdə müvafiq olaraq Azərbaycan Respublikasının, habelə Naxçıvan MR-in ədliyyə nazirləri, nazir müavini-Penitensiar xidmətin rəisləri, Dövlət Təhlükəsizlik Xidmətinin istintaq təcridxanasına münasibətdə isə, həmin xidmətin rəisi aid edilməlidirlər. Eyni zamanda, cərimə təcridxanası otaqlarının təchizatı ilə bağlı məsələnin cəzaçəkmə müəssisələrinin DİQ-i ilə müəyyən olunmuş qaydaya uyğun olaraq tənzimlənməsi daha məqbul hesab olunur.

5. Həbs və cəzaların icrası qanunvericiliklərinin təkmilləşdirilməsi, onların tərtib edilmə üslubunda olan qusurların aradan qaldırılması məqsədilə:

1) ***Məhkumlara tətbiq edilən həvəsləndirmə və təhbeh tədbirlərinin siyahısı, tətbiqi prosedurları ilə bağlı normaları birlikdə cəmləşdirməklə, onları AR CİM-in xüsusi fəslində vermək.***

Təklif olunan yanaşmadan 1925-ci və 1970-ci il tarixli ASSR-nin İƏM-lərində istifadə edilmişdi. Sözügedən məcəllələrin müvafiq olaraq altıncı və on birinci fəsilləri həmin tədbirlərə, onların tətbiqi qaydalarına həsr olunmuşdu. Eyni zamanda, Qazaxıstanın, Özbəkistanının, Gürcüstanın cəzaların icrası qanunvericiliklərində azadlıqdan məhrum edilmiş məhkumlara həvəsləndirmə və təhbeh tədbirləri, onların tətbiqi ilə bağlı normalar ayrıca fəsillərdə verilmişdir.

2) ***AR CİM-in 70-ci maddəsinə isinad edilməklə, həmin məcəllənin 105.3, 105.4 və 107.5-ci maddələrinə uyğun olaraq, məhkumların qanunla müəyyən edilmiş qaydada cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsinin və əfv etməyə təqdim edilməsi ilə bağlı normaları ləğv etmək.***

Müvafiq dəyişikliklər, sözügedən tədbirlərinin həvəsləndirmə və tənbeh tədbirlərinin hüquqi təbiətlərinə istinadən, yəni müvafiq imtiyazların bilavasitə müəssisə müdiriyyətinin qərarı ilə reallaşmasının istisna edilməsi baxımından məqsədəuyğun hesab olunur.

3) ***AR CİM-də azadlıqdan məhrum etmə növündə cəzalara məhkum olunmuş şəxslərə həvəsləndirmə və tənbeh tədbirlərinin cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən tətbiq edilməsi ilə bağlı oxsar normaları ümumiləşdirməklə vahid bir normada ifadə etmək.***

Belə ki, sözügedən məcəllənin 106.1-ci maddəsinin ləğv edilməsini, maddənin adının isə, "Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzalara məhkum olunmuş şəxslərə verilmiş tənbehi vaxtından əvvəl götürmək növündə həvəsləndirmə tədbirinin tətbiqi qaydası" kimi verilməsini, 109, 111 və 127-ci maddələrdəki təkrar olunan oxşar normaları Azərbaycan Respublikasının "Normativ hüquqi aktlar haqqında" Konstitusiya qanununda təsbit edilmiş tələblərə uyğunlaşdırmaq məqsədilə, AR CİM-in 127-ci maddələrinin və 109-cu maddəsinin birinci cümləsindəki normaların ləğv edilməsini, habelə həmin məcəllənin 111-ci maddəsini aşağıdakı yeni redaksiyada veriməsini məqsədəuygun hesab edirik.

"**Maddə 111. Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzalara məhkum olunmuş şəxslərə həvəsləndirmə və tənbeh tədbirlərinin verilmə qaydası, onları tətbiq edən vəzifəli şəxslər**

Bu Məcəllənin 105, 107, 124-1 və 125-ci maddələrində göstərilən həvəsləndirmə və tənbeh tədbirləri məhkumlara cəzaçəkmə müəssisəsinin müdiriyyətinin əsaslandırılmış yazılı qərarı ilə tətbiq edilir."

4) ***Tənbeh tədbiri qaydasında kamera tipli otaqlarda və ya birdəfəlik kameralarda saxlanılan məhkumların hüquqlarını tənzimləyən AR CİM-in 110.2-ci maddəsində göstərilən hüquqlarla və bir qısa müddətli görüşə icazə verilməsi ilə bağlı normalardan istifadə ilə bağlı müddətləri konkretləşdirmək.***

İstinad olunan normalarda sözügedən qeyri-konkretlik hüquqi müəyyənlik prinsipinin pozulması olmaqla, təcrübədə cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən sui-istifadə hallarına yol verilməsinə zəmin yaradır. Bu məqsədlə sözügedən məsələyə aydınlıq gətirilməsi ilə bağlı AR CİM-in 110.2.1, 102.2.2 və 102.2.4-cü maddələrinin əvvəlinə "ay ərzində" və yaxud "tənbehin icrası müddətində" sözlərinin əlavə edilməsi məqsədəuyğun olardı. Rusiya Federasiyasının, Belarus Respublikasının cəza-icra məcəllələrində sözügedən hüquqlardan istifadə müddətləri dəqiq olaraq göstərilmişdir. Fikrimizcə, AR CİM-in əsaslandığı humanizm prinsipini rəhbər tutaraq, məhkumların göstərilən normalara uyğun hüquqlardan hər ay yararlanması daha məqbul qəbul edilərdi. Eyni zamanda, beynəlxalq aktlara istinadən, qısa müddətli görüş imkanının müəssisə müdiriyyətinin səlahiyyətindən çıxarılaraq məhkumun hüququ kimi verilməsi və həmin hüquqdan ayda bir dəfə istifadənin təsbit olunması, habelə yuxarıda göstərildiyi kimi tənbeh tədbiri tətbiq olunmuş şəxslərə yaxın qohumları tərəfindən mümkün müsbət təsir göstərilməsi, habelə sui-istifadə hallarının aradan qaldırılması baxımından daha məqsədəuyğun olardı.

Son illər hüquq ədəbiyyatında, xüsusilə Rusiya Federasiyasında azadlıqdan məhrum edilmiş şəxslərə tətbiq olunan bir sıra tənbeh tədbirlərinin səmərəliyini itirməsi, sözügedən şəxslərə arzu edilən qaydada təsir göstərmədiyi, onlar üçün kifayət qədər məhdudiyyətlər yaratmadığı kimi fikirlərə istinadən müvafiq siyahının genişləndirilməsi, onların sərtliyinin və ya müddətlərinin artırılması ilə bağlı təkliflər verilir [17, c. 18, 18, c. 254–255, 19, c. 39, 20, c. 218–219]. Azərbaycan Respublikasına münasibətdə, biz belə yanaşma ilə razılaşmırıq. İlkin olaraq, tənbeh tədbirlərinin siyahısına məhkumların qanunvericilikdə nəzərdə tutulmuş bir sıra hüquqlardan, yəni növbəti görüşdən, bağlama, sovqat və ya banderol almaqdan məhrum edilməsi, bir aylıq müddətə ərzaq məhsullarının əldə olunmasını qadağan qoyulması ilə müşayiət olunan tədbirlərin yenidən qanunvericiliyə daxil edilməsi təklifləri, fikrimizcə, o qədər də səmərəli və təsirli olmayacaq. Belə ki, AR CİM-i azadlıqdan məhrum edilmiş bütün məhkumlar, o cümlədən ömürlük azadlıqdan məhrum edilmişlər üçün il ərzində kifayət sayda görüş, bağlama, sovqat və ya banderol almaq, telefon danışığından istifadə etmək hüquqları təqdim etmişdir. Buna görə də sözügedən hüquqlardan bir ay müddətində, yaxud növbəti, yəni bir dəfə

məhrum etmə tədbirlərinin aidiyyəti məhkumlar üçün ciddi məhdudiyyət yaradacağını, onlara böyük tərbiyəvi təsir göstərəcəyini söyləmək çətindir. Habelə, mövcud tənbeh tədbirlərinin sərtliyinin və ya onların müddətlərinin artırılması ilə arzu olunan müsbət nəticənin əldə ediləcəyinə də ehtiyatla yanaşmaq lazımdır. Ümumbəllidir ki, hüquq pozuntularına dövlət tərəfindən verilən qiymət, yəni cinayət cəzaları, tənbehlər, o cümlədən azadlıqdan məhrum edilmiş şəxslərə tətbiq olunan tənbeh tədbirləri özünün sərtliyi ilə yox, qaçılmazlığı ilə daha səmərəli ola bilər. Göstərilənlərə istinad edərək, hazırda qüvvədə olan tənbeh tədbirlərindən əlavə, onların yeni növlərinin müəyyən edilməsini, bir qrup mövcud tədbirlərin icra mexanizminin sərtləşdirilməsini, habelə müddətlərinin artırılmasını məqsədəuyğun hesab etmirik. Eyni zamanda, sözügedən təkliflərlə əlaqədar Azərbaycan Respublikasında hələ ətraflı arasdırmalar aparılmamış, onlarla bağlı kifayət qədər əsaslandırılmış rəylər hələ yoxdur. Düşünürük ki, qüvvədə olan tənbeh tədbirlərinin məhkumlara tərbiyəvi təsir göstərməsi və yeni pozuntuların profilaktikası ilə əlaqədar mümkün imkanları hələ tükənməmiş və onlar hələ də işlək olaraq qalmaqdadırlar. Burada əsas məsələ qanunvericilikdə tənbeh tədbirlərinin tətbiqi ilə əlaqədar təsbit edilmiş əsas prinsipə, yəni yol verilmiş pozuntunun törədilmə şəraiti, məhkumun şəxsiyyəti və cəzanın çəkilməsi müddətindəki davranışı nəzərə alınmaqla, xətanın ağırlığına və xüsusiyyətinə uyğun ədalətli tənbehin seçilməsinə dönmədən riayət edilməsidir.

Sonluqda məhkumlara həvəsləndirmə tədbirlərinin tətbiqi proseduru ilə bağlı Özbəkistanın Cəza-icra məcəlləsinə 2020-ci ilin iyun ayında daxil edilmiş bir yeniliyə də toxunmaq istərdik. Belə ki, sözügedən dəyişikliyə görə azadlıqdan məhrum edilmiş məhkumlara həvəsləndirmə tədbirlərinin tətbiqi cəzaçəkmə müəssisələrində yaradılmış xüsusi komissiyaların rəyi əsasında həyata keçirilir. Komissiyalar səkkiz nəfərdən az olmamaqla təşkil edilir, onların tərkibi, yarısı dövlət hakimiyyəti yerli nümayəndəlik orqanlarının xalq deputatlarından, İnsan hüquqları üzrə Müvəkkilin (Ombudsmanın), yerli idarəetmə orqanlarının, habelə həyat təcrübəsinə və əhali arasında nüfuza malik olan ictimai təşkilatların nümayəndələrindən ibarət olmaqla formalaşdırılır. Komissiyaya sədrliyi cəzaçəkmə müəssisəsinin rəisi həyata keçirir. Komissiyanın iclasları məhkumlar barəsində hazırlanmış sənədlərə istinadən və onlarla bilavasitə söhbətlər aparılmaqla, il ərzində iki dəfədən az olmayaraq, habelə bayram günləri ilə bağlı keçirilir. İclaslarda qərarlar açıq səsvermə yolu ilə qəbul edilir və protokollaşdırılır. Barələrində həvəsləndirmə tədbirlərinin tətbiqi ilə əlaqədar müsbət qərar qəbul edilmiş məhkumlarla bağlı cəzaçəkmə müəssisəsinin rəisi əmr imzalayır və onların məzmununu məhkumlara elan edilir. Sözügedən komissiyaların yaradılması və iş qaydaları, qanunvericilklə cəzaların icrasının təşkili vəzifəsi həvalə olunmuş Özbəkistanın Daxili işlər nazirinin əmri ilə təsdiq olunmuş ölkənin Cəzaçəkmə müəssisələrinin DİQ-nə daxil edilmişdir.

İlkin vurğulamaq lazımdır ki, azadlıqdan məhrum edilmiş şəxslərə həvəsləndirmə tədbirlərinə kollegial qaydada baxılması təcrübəsinə əvvəllər də rast gəlinmişdir. Belə ki, Azərbaycan SSR-nin 1925-ci il tarixli İƏM-ə uyğun olaraq həvəsləndirmə və tənbeh tədbirlərinin tətbiqi ilə bağlı məsələlərə Bölüşdürmə və Müşahidə komissiyaları, Pedaqoji şuralar kimi qurumlar tərəfindən baxılması və kollegial qərar qəbul edilməsilə əlaqədar mövcud olmuş qaydalara tərəfimizdən yuxarıda toxunulmuşdur. Fikrimizcə, sözügedən yenilik azadlıqdan məhrum etmə cəzasının icrasında ictimaiyyətin iştirakının bir növü kimi təqdim edilsə də, həmin fəaliyyətin Azərbaycan Respublikasında effektiv olacağına böyük ehtiyatla yanaşmaq lazımdır. İlk növbədə, düşünürük ki, yeni prosedurun həyata keçirilməsi çevik deyildir, zəruri hallarda lazımi operativliyi təmin etmir. Belə ki, komissiyanın iclaslarının keçirilməsi imkanlarının sayca o qədər də böyük olmaması, habelə təşkilati məsələlərin həlli, yəni komissiyanın iclasının hazırlanması, onun keçirilmə vaxtının üzvlərlə razılaşdırılması kifayət qədər vaxt tələb etdiyi baxımından bizə sözügedən nəticəyə gəlməyə imkan yaradır. Tənbeh tədbirlərindən fərqli olaraq, həvəsləndirmə tədbirinin tətbiqi ilə bağlı AR CİM-də konkret müddətlər müəyyən edilməsə də, bir sıra hallarda, xüsusilə fövqəldə və ya baş vermiş gözlənilməz hadisələr zamanı məhkumların hamı tərəfindən birmənalı müsbət qəbul edilən cəsarətli hərəkətlərinin, misal üçün, baş vermiş yangın zamanı cəza çəkən şəxslərin, dövlət əmlakının xilas edilməsinin, halı qəflətən pisləşmiş şəxslərə təxirəsalınmaz zəruri yardım göstərilməsinin, hər hansı ciddi rejim pozuntusunun və ya törədilə bilən cinayətin qarşısının alınmasının qısa müddətdə qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Belə hallarda məhkumun təqdir edilən əməllərinin təxirəsalınmadan qeyd olunması əvəzinə, məsələyə münasibət bildirilməsi üçün müvafiq komissiyanın növbəti iclasının və onun qərarının gözlənilməsi nə qədər düzgün olardı?! Eyni zamanda, cəzanın icrası fəaliyyəti ilə heç bir əlaqəsi olmayan komissiya üzvləri həvəsləndirilməyə namizəd məhkumlarla söhbətlər aparsalar də, sonuncuların cəzanın çəkilməsi dövründəki davranışları, islah edilmə dərəcələri, habelə sözügedən şəxsin həvəsləndirilməyə layiq olması ilə bağlı məlumatları yalnız cəzaçəkmə müəssisəsinin müdiriyyətinin hazırladığı sənədlərlə tanış olduqdan sonra əldə edə bilərlər. Sözügedən şəxslərin məhkumlar barədə onlara təqdim edilmiş məlumatın obyektivliyinin yoxlanması, yaxud digər mənbədən məlumat alınması ilə bağlı imkanları, demək olar ki, yoxdur və bu barədə məcəllədə hər hansı bir norma da nəzərdə tutulmamışdır. Qeyd olunanlara istinadən, məsələ ilə bağlı komissiya tərəfindən müvafiq qərarların bilavasitə cəzaçəkmə müəssisəsinin müdiriyyətinin hazırladığı sənədlər əsasında qəbul olunması, demək olar ki, birmənalıdır. Habelə, müvafiq komissiyaların ötən dövr ərzində fəaliyyəti ilə əlaqədar ətraflı təhlillərin, rəsmi statistikanın və rəylərin olmadığı bir vəziyyətdə, yeni prosedurun əvvəlkindən daha səmərəli olması barədə obyektiv fikir bildirilməsini və onun birmənalı olaraq müsbət qiymətləndirməsini xeyli çətinləşdirir. Əlavə olaraq, yeni qaydanın tətbiqinin sabiq qaydalardan daha işlək və məqsədəuyğun olmasının öyrənilməsi ilə bağlı, cəzaçəkmə müəssisələrinin işçi heyəti ilə sorğuların, habelə müvafiq elmi araşdırmaların aparılmaması da (bu barədə də rəsmi məlumat yoxdur), bizə nəzərdən keçirilən qanundakı müvafiq dəyişikliyin daha əlverişli olmasını təsdiq etməyə imkan vermir. Göstərilənləri nəzərə alaraq, məhkumlara həvəsləndirmə tədbirlərinin tətbiqinə kollegial qaydada, xüsusi olaraq yaradılımış komissiya tərəfindən baxılması ilə bağlı Özbəkistan Respublikasındakı mövcud təcrübənin Azərbaycan

Respublikasında da tətbiqinin nəzərdən keçirilməsinə və qəbuluna hələ ehtiyac duyulmadığı qənaətindəyik.

Azərbaycan Respublikasında azadlıqdan məhrum edilmiş şəxslərə tətbiq olunan həvəsləndirmə və tənbeh tədbirləri, onların humanistləşdirilməsi, tətbiqi qaydalarının təkmilləşdirilməsi ilə əlaqədar təkliflərimiz, fikrimizcə, cəzaçəkmə müəssisələrinin rəhbərliyinə müvafiq sahədə daha geniş səlahiyyətlər verə bilər. Bu isə, məhkumların islahı prosesinin səmərəliliyini artırmağa, onların cəzaçəkmə dövründə arzu olunan davranışlarının formalaşmasına, habelə ədalət mühakiməsinin və cinayət cəzasının məqsədlərinə daha uğurla nail olunmasına əlavə imkanlar yarada bilərdi. Təkliflərin müsbət qəbulu təqdirində AR CİM-ə, habelə "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Qanunun müvafiq maddələrinə, habelə cəzaçəkmə müəssisələrinin və istintaq təcridxanalarının DİQ-lərinə dəyişikliklər edilməsi zərurəti yaranacaqdır.

References

1. Мухтарова Ю. Ш. О мерах поощрения и взыскания, применяемых в исправительных учреждениях // Уголовно-исполнительное право. Рязань. 2014. № 1 (17), С. 50–53.

2. Гусева О. Я., Плешаков С. М. Применение мер поощрения к лишенным свободы осужденным // Материалы IV научно-практической конференции «Актуальные проблемы уголовного права и процесса, уголовно-исполнительного права и криминалистики». Саранск. 2016, С. 37–40.

3. C. Quliyev, M. Hümbətov, N. Mustafayev. Azərbaycan Respublikasının cəza-icra hüququ. Dərs vəsaiti. Bakı, "Hüquq Yayın Evi" nəşriyyatı. 2022. 576 s.

4. Елисов П. П. Основания и порядок применения к осужденным мер поощрения и взыскания // Право и управление, Москва, 2023. № 1. С. 278–282.

5. Ковалев О. Г. Меры поощрения и порядок их применения к осужденным, отбывающим лишение свободы в исправительных учреждениях уголовно-исполнительной системы // Российский научный вестник. Научно-правовой журнал. Москва, 2026. № 1 (январь). С. 295–300.

6. Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında Azərbaycan Respublikası Qanununun elmi-praktiki kommentariyası. Hüquq və İnsan Haqları İnstitutu. Bakı, 2025. 625 s.

7. Сиряков А. Н. Применение взысканий к осужденным: оценка эффективности // Вестник Кузбасского института ФСИН России. Новокузнецк. 2018, № 3 (36). С. 77–87.

8. Hümbətov M. H. Azərbaycan SSR-nin 1925-ci il İslah–Əmək Məcəlləsi və onun xüsusiyyətləri // Danish Scientifik Journal. 2026. № 110, pp. 31–39.

9. Hümbətov M. H. Humanizmin yeni nümunəsi // "Qanunçuluq" jurnalı, Bakı, 1997. № 3, Səh. 20–25.

10. Hümbətov M. H. Cəzaların İcrası Məcəlləsinin yeni layihəsi haqqında // "Cəmiyyət və cəza" jurnalı, Bakı, 2000. № 1, Səh. 22–25.

11. Hümbətov M. H. Azərbaycan Respublikasında 2011–2025-ci illərdə amnistiya və əfvetmə institutlarının tətbiqi və onların xüsusiyyətləri // Journal of sciense. Lyon. 2026. № 74, pp. 32–41.

12. Гумбатов М. Г. Закон Азербайджанской Республики «Об обеспечении прав и свобод лиц, содержащихся под стражей»–фундаментальная основа реализации презумпции невиновности. Гуманитарно-пенитециарный вестник: научно-публицистический альманах / под общ. ред. Ю. А. Реента. Рязань, Академия ФСИН России. 2014 г. Вып. 7, С. 80–87.

13. Hümbətov M. H. Azərbaycan Respublikasında qadınlara cinayət cəzalarının təyin edilməsinin və məhkum qadınların cəzalarının icrasının xüsusiyyətləri // Norwegian Journal of development of the International Science. 2025. № 156. pp. 49–58.

14. Гумбатов М. Г. Кодекс по исполнению наказаний Азербайджанской Республики: изменения и перспективы совершенствования // Уголовно-исполнительное право. Рязань, 2024. Т. 19(1–4), № 4, 633–641.

15. Hümbətov M. H. Azərbaycan Respublikasında azadlıqdan məhrum ediliş şəxslərin xarici aləmlə əlaqələri, onların inkişaf perspektivləri // Slovak international scientific journal. Slovakia. 2025. № 94, pp. 62–69.

16. Hümbətov M. H. Azərbaycan Respublikasında yetkinlik yaşına çatmayanlara cinayət cəzalarının təyin edilməsinin və onların cəzalarının icrasının xüsusiyyətləri // Journal Annali d'Italia. 2025. № 71, pp. 21–32.

17. Чернышенко Е. В. Проблемы реализации дисциплинарной ответственности в отношении осужденных к лишению свободы // Пенитенциарная наука. Вологда, 2017. Выпуск № 39, С. 16–19.

18. Санташова Л. Л., Худякова Е. А. Совершенствование правового регулирования мер поощрений и взысканий, применяемых к осужденным к лишению свободы // Пенитенциарная наука. Вологда. 2019. Т. 13, № 2, С. 249–256.

19. Вележев С. И., Калугин Л. Н. Некоторые вопросы эффективности и применения осужденным мер взыскания // Юридическая наука и практика; альманах научных трудов Самарского юридического института ФСИН России. Самара. 2021. С. 36–40.

20. Метлин Д. Г. Проблема рационального применения мер взыскания к осужденным, отбывающим лишение свободы в отечественных пенитенциарных учреждениях // Уголовно-исполнительное право, 2022. Т. 17 (1–4), № 2. С. 214–220.

№112, 2026
Slovak international scientific journal

The journal has a certificate of registration at the International Centre in Paris – ISSN 5782-5319.
The frequency of publication – 12 times per year.
Reception of articles in the journal – on the daily basis.
The output of journal is monthly scheduled.
Languages: all articles are published in the language of writing by the author.
The format of the journal is A4, coated paper, matte laminated cover.
Articles published in the journal have the status of international publication.

The Editorial Board of the journal:
Editor in chief – Boleslav Motko (Bratislava) Slovakia
The secretary of the journal – Milica Kovacova (Bratislava) Slovakia

- Lucia Janicka – (Bratislava) Slovakia
- Stanislav Čerňák – (Bratislava) Slovakia
- Miroslav Výtisk – (Nitra) Slovakia
- Dušan Igaz – (Nitra) Slovakia
- Terézia Mészárosová – (Banská Bystrica) Slovakia
- Peter Masaryk – (Rzeszów) Poland
- Filip Kocisov – (Wrocław) Poland
- Andrej Bujalski – (Košice) Slovakia
- Jaroslav Kovac – (Trnava) Slovakia
- Paweł Miklo – (Bratislava) Slovakia
- Jozef Molnár – (Bratislava) Slovakia
- Tomajko Milaslavski – (Nitra) Slovakia
- Natália Jurková – (Bratislava) Slovakia
- Jan Adamczyk – (Prague) Czech Republic
- Boris Belier – (Bratislava) Slovakia
- Stefan Fišan – (Bratislava) Slovakia
- Terézia Majercakova – (Wien) Austria
- Ekaterina Semko (Kyiv) Ukraine

1000 copies
Slovak international scientific journal
Partizanska, 1248/2Bratislava, Slovakia 811 03
email: info@sis-journal.com
site: http://sis-journal.com